www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 oktyabr-1 noyabr 2015-ci il Şənbə № 242 (6270) Qiyməti 40 qəpik

**Xəbər**

## Siqaret və araqları kartla satmayanları həbs gözləyir

yazısı səh.13-də

**Gündəm**

### Ölkəmiz üçün növbəti təhlükəli plan işə salınıb



**Ekspert:** "Azərbaycanın təklənməsi prosesi gedir, Qərb də bu situasiyada Azərbaycanı müdafiə etmək fikrində deyil"

yazısı səh.8-də

### Müsavatın namizədlərinin ərizələri qəbul edilmədi

yazısı səh.4-də

### ABŞ Senatının Azərbaycan əleyhinə keçirdiyi dinləmələr hakimiyyətdə narahatlıq doğurdu

yazısı səh.7-də

### Ağcabədinin icra başçısı 120 sahibkarın torpağını əlindən alır

yazısı səh.3-də

### Nazirin töhməti məddahlığın kökünü kəsə bilərmi...

yazısı səh.10-da

### Hakimiyyət müşahidəçilərlə bağlı yenidən ATƏT-ə müraciət etdi

yazısı səh.11-də

### Cahangir Hacıyevə görə "fəhlə üsyanı", həbslər, "yoxa" çıxan milyonlar...

yazısı səh.15-də

### İctimai-siyasi şəxslərdən Ramiz Mehdiyevin məqaləsinə reaksiya

yazısı səh.11-də

### Hakimiyyət öz içindəki "pisləri" təmizləyə biləcəkmi...

yazısı səh.12-də

### Ankara və Moskva üz-üzə qalıb; Bakını nə gözləyir...

yazısı səh.7-də

### Məkkədəki kran hadisəsi Bakıda da təkrarlana bilər

yazısı səh.15-də

### Boşanmaq istəməyən kişi sirkə turşusu içdi

yazısı səh.8-də

**"Sahibkarlara azadlıq" kod adlı əməliyyat - sirr pərdəsi qalxır**

# "MTN İŞİ"NDƏ WİKİLEAKS VARİANTI - ŞOK İDDİA

Milli Təhlükəsizlik Nazirliyində ifşa olunan çətə ən strateji sirləri yaymağı planlaşdırırmış; cəmiyyəti şokedici məlumatlarla qarışdırmaq və Azərbaycanda xaos yaratmaq planının arxasında hansı dövlətlər dayanıb? Prezident İlham Əliyev Eldar Mahmudovun dövlət əleyhinə yaratdığı "dərin dövlətini" necə viran qoydu...




yazısı səh.5-də

# Nüfuzlu rusiyalı ekspertdən sensasion Qarabağ iddiası

"Avrasiya Birliyinə qoşulmağın qarşılığında Moskva Bakıya işğaldakı rayonları qaytarmağı təklif edəcək, amma..." Ermənistanın sabiq baş naziri: "Sərkisyan 4-5 rayonu verməyə hazırlaşır..."

yazısı səh.9-da



*Əli Hüseynli:*

### "Eldar Mahmudov kimi riyakarın..."

yazısı səh.3-də



### Kamal Kılıçdaroğlu "Yeni Müsavat"a müsahibə verdi

yazısı səh.6-da



*Aqil Xəlil:*

### "Çəkdiklərimi bu pullarla "yuya" bilməzlər"

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015



# İsveçrə bankı keçmiş nazirin 61 milyon dollarına həbs qoydu

**İsveçrədə hakim dairələrin Rusiyanın keçmiş kənd təsərrüfatı naziri Yelena Skrinnikin nəzarət etdiyi yerli hesabları dondurduğu bildirilir. Bu addımın çirkli pulların yuyulması barədə iddialara əsasən aparılan təhqiqatın bir hissəsi olduğu qeyd edilir.**

Oktyabrın 28-də Rusiya mətbuatı İsveçrə prokurorluğunun adını çəkmədiyi işçisinə istinadən Y.Skrinnikin adına açılmış, ümumi həcmi 61 milyon dollara qədər olan hesabların dondurulduğu xəbərini yayıb.

Bildirilir ki, 2007 və 2012-ci illər arasında bu hesablara 140 milyon dollara qədər şübhəli maliyyə vəsaiti köçürülüb.

Y.Skrinnik 2009-2012-ci illərdə kənd təsərrüfatı naziri postunu tutub. O, hazırda Fransız Rivyerasında yaşayır.

Bu həftə rusiyalı prokurorlar kənd təsərrüfatı nazirinin keçmiş müavini Aleksey Bajanovun nəzarət etdiyi hesablardakı təqribən 12,2 milyon dollarlıq məbləği dondurmağı İsveçrədən xahiş ediblər.

Bu müraciət Rusiyanın dövlət şirkəti olan "Rosaqrolizinq" vasitəsilə çirkli pulların yuyulduğu barədə iddialarla bağlı aparılan təhqiqatın bir hissəsi sayılır. Y.Skrinnik nazir postuna təyin olunmazdan əvvəl bu şirkətin rəhbəri olub.

**Rusiya mediasına müsahibəsində Yelena Skrinnik İsveçrə banklarında 61 milyon dollarının olduğunu inkar edib. O, bu məbləğin dondurulduğu barədə xəbərləri "yalan" adlandırıb.**

# Azərbaycanlılar İndoneziyaya vizasız gedəcəklər



**Noyabrın 1-dən Azərbaycan vətəndaşları İndoneziyaya vizasız səfər edə bilərlər. ANS PRESS-in məlumatına görə, bu haqda İndoneziyanın Azərbaycandaki səfirliyi məlumat verib.**

Vizasız rejim yalnız turistlərə tətbiq olunacaq. İndoneziyaya turistik məqsədlərlə səfər edən Azərbaycan vətəndaşları ölkədə bir ay ərzində vizasız qala bilərlər.

Yeni qaydalara görə, Azərbaycandan gələn turistlərin pasportlarına ölkədə 30 gün ərzində qalmağa icazəni nəzərdə tutan möhür vurulacaq. (Bu müddət uzadıla bilməz.) Buna görə turistdən əlavə pul alınmayacaq.

Viza rejiminin ləğvi haqda qərar İndoneziya və Azərbaycan arasında turizm sahəsində münasibətlərin genişləndirilməsi üçün qəbul edilib.

İndoneziyadan savayı, Azərbaycan vətəndaşları həmçinin Kuba, İordaniya, Türkiyə, Tunis, Suriya, Seyşel adaları, Şimali Kipr, Mavritaniya, Maldiv adaları və Malayziyaya vizasız ziyarət edə bilərlər.

Bundan əlavə ölkə vətəndaşları Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan və Ukraynada 90 gün ərzində vizasız yaşaya bilərlər.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;


# Ərdoğan: "Xəzərdən Suriyaya raket atılması bizi narahat etdi"

**"Xəzər dənizindən Suriyaya raket atılması bizi narahat etdi". Bu sözləri APA-nın Türkiyə müxbiri Mayis Əlizadənin suallarını cavablandırarkən prezident Rəcəb Tayyib Ərdoğan deyib.**

Ərdoğan Türkiyə Cümhuriyyətinin qurulmasının 92-ci ili münasibətilə Ankarada keçirdiyi rəsmi qəbul zamanı bildirib ki, bu məsələ ilə bağlı Rusiya prezidenti Vladimir Putinlə danışıb: "Bu məsələdən narahat olduğumuzu dedik. Bu axşam xarici işlər nazirləri Vyanada bir araya gəldilər. Orada toplantılar davam edir. Dar çərçivədə - ABŞ, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə müzakirələri keçirilir. Bundan əlavə, 13 ölkənin iştirak edəcəyi geniş tərkibli yığıncaq təşkil olunacaq".



## Tiflis Saakaşviliyə ən ağır zərbəsini endirdi

**Gürcüstan Ədliyyə Nazirliyi eks-prezident Mixail Saakaşvilinin Gürcüstan vətəndaşlığından çıxarılması prosesinə başlayıb.**

Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Gürcüstanın Ədliyyə naziri Teya Tsulukiani söyləyib. Onun sözlərinə görə, Tiflis artıq Kiyevdən Saakaşvilinin Ukrayna vətəndaşlığına qəbulu haqqında rəsmi məlumat alıb:

"Biz bu sənədlərə əsasən 30 oktyabrdan etibarən Saakaşvilinin vətəndaşlığının ləğvi barədə proseduru başladırıq. Gürcüstan hökuməti əlində heç bir rəsmi sənəd olmadığına görə, bundan öncə Saakaşvilinin vətəndaşlığını ləğv edə bilməmişdi".

Qeyd edək ki, Saakaşvili Ukrayna vətəndaşlığına may ayında qəbul olunub. O hazırda Odessa vilayətinin qubernatorudur. Eks-prezident bir müddət öncə mətbuata verdiyi açıqlamasında 2016-cı ildə Gürcüstandakı seçkilərə qatılacağını və ölkəyə dönəcəyini bildirmişdi.

## Abdulla Abdullayevin şikayəti əsasında məhkəmə başlayıb

**Bakı Apellyasiya Məhkəməsində "A.M.A.Y" ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayevin barəsində hökmdən verilən apellyasiya şikayəti üzrə məhkəmə prosesi başlayıb.**

APA-nın məlumatına görə, ilkin baxış iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Daha sonra A.Abdullayevin vəkili bir neçə vəsatət qaldırıb. Məhkəmə vəsatətləri təmin etməyib.

Proses noyabrın 13-də davam etdiriləcək.

**Qeyd edək ki, A.Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 *(mənimsəmə və ya israf etmə)* və 308.2-ci *(vəzifə səlahiyyətlərindən sui-istifadə)* maddələri ilə təqsirləndirilir. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə A.Abdullayev 13 il müddətinə azadlıqdan məhrum edilib.**

## Yüzlərlə vətəndaşı aldadaraq ölkədən qaçan lombard sahibi axtarışa verilib

**Azərbaycanda yüzlərlə vətəndaşı aldadan lombard sahibi beynəlxalq axtarışa verilib. APA-nın İnterpolun saytına istinadən verdiyi məlumata görə, 52 yaşlı Tahirə Alaz dələduzluqda təqsirləndirilir. O, ölkədən qaçdığı üçün barəsində dövlətlərarası axtarış elan olunub və saxlanılması üçün İnterpola müraciət edilib.**




APA-nın əldə etdiyi məlumata görə, Tahirə Alaz Bakının Nərimanov rayonu, F.X.Xoyski küçəsi, 192 ünvanında fəaliyyət göstərən lombardın sahibi olub. Yüzlərlə vətəndaş qızıllarını həmin lombarda girov qoyaraq pul götürüb. Bir müddət vətəndaşların etibarını qazanan Tahirə Alaz daha sonra lombardı bağlayaraq ölkədən qaçıb. Onun hazırda Türkiyədə gizləndiyi bildirilir.

Nərimanov Rayon Polis İdarəsindən APA-ya bildirilib ki, Tahirə Alazla bağlı idarəyə çoxsaylı şikayət daxil olub. Hazırda polis onun tapılaraq istintaqa cəlb edilməsi istiqamətində əməliyyat-axtarış tədbirlərini davam etdirir.

## Bir çox ölkələrin "Bakutel 2015" sərgi-konfransında iştirakı təsdiq edilib

**2-5 dekabr tarixində Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində 21-ci Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları ("Bakutel 2015") sərgi-konfransı keçiriləcək. Regionun ən böyük tədbirlərindən biri olan "Bakutel" sərgisi 20 ildən artıqdır ki, hər il telekommunikasiya bazarının aparıcı iştirakçılarını öz platformasında bir araya toplayır.**




"ICTnews" Elektron Xəbər Xidmətinin məlumatına görə, Təşkilat Komitəsindən bildirilib ki, uzun illər "Bakutel" sərgisindən öz dəyərli dəstəyini əsirgəməyən Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi sərginin inkişafında və formalaşmasında mühüm rol oynayıb.

BMT, Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) və Regional Rabitə Birliyi (RRB) kimi beynəlxalq təşkilatların dəstəyi, eləcə də Ümumdünya Sərgi Sənayesi Assosiasiyası (UFI) tərəfindən sərgiyə verilmiş keyfiyyət nişanı "Bakutel" sərgisinin beynəlxalq nüfuzunu bir daha təsdiq edir.

Təşkilat Komitəsindən verilən məlumata görə, artıq bu günə qədər Azərbaycan, ABŞ, Almaniya, Rusiya, Türkiyə, Fransa və digər ölkələri təmsil edən 200-dən artıq şirkət sərgidə iştirak edəcəyini təsdiqləyib.

Ümumilikdə sərgidə 15 milli stendin iştirakı gözlənilir və Belarus, Bolqarıstan, Kanada, Macarıstan, İsrail, İran, İtaliya, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, Serbiya və Xorvatiyanın iştirakı isə artıq təsdiq edilib.

Sərginin işini daim müşayiət edən geniş işgüzar proqram "Bakutel" sərgisinin səciyyəvi cəhətidir. Ekspo Mərkəzinin üçüncü zalında keçiriləcək çoxsaylı görüşlər, forumlar və konfranslar bütün dünyada İKT sahəsi üzrə ən son təmayülləri, eləcə də Azərbaycanda İKT sektorunun inkişaf perspektivlərini müzakirə etməyə imkan verir. Beləliklə, ölkənin İKT sahəsi bu sektor üzrə əsas tədbiri - beynəlxalq "Bakutel" sərgisini intizarla gözləyir və bu tədbirə hazırlaşır.

Sərgidə işgüzar görüş və danışıqlarla yanaşı, bir sıra sürprizlər, eləcə də müsabiqə və viktorinalar bütün iştirakçı və ziyarətçilərinin yolunu gözləyir.

**Qeyd edək ki, sərginin təşkilatçıları qismində "Iteca Caspian" və "Caspian Event Organisers" ("CEO") şirkətləri çıxış edirlər. Sərginin qeydiyyat üzrə sponsoru isə "Eurodesign" şirkətidir.**

## Prokuror vəkilə 10 il iş istədi

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən vəkil Mənsum Bayramovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, prosesdə dövlət ittihamçısı çıxış edərək M.Bayramovun 10 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Proses noyabrın 3-də davam etdiriləcək.

Qeyd edək ki, M.Bayramova Cinayət Məcəlləsinin 178-ci *(dələduzluq)* maddəsi ilə ittiham irəli sürülüb.

Mənsum Bayramov 2005-ci ildə Mərkəzi Seçki Komissiyasının AXCP-dən namizədliyi irəli sürülən üzvü olub.

## Lisenziyalaşdırma ilə bağlı yeni qurum yaradıldı

**İqtisadiyyat və Sənaye Nazirliyində yeni şöbə yaradılıb. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan prezidentinin 19 oktyabr, 2015-ci il tarixli "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Fərmanına əsasən, bütün xüsusi razılıqlar (lisenziyalar) İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində veriləcək. Hazırda nazirlik tərəfindən lisenziyaların sayının azaldılmasına və prosedurların sadələşdirilməsinə dair təkliflər hazırlanır.**

Eyni zamanda texniki-təşkilati istiqamətlərdə işlər davam etdirilir, "ASAN xidmət" mərkəzlərində sahibkarlara xidmətin yüksək səviyyədə göstərilməsi üçün İqtisadiyyat və Sənaye Nazirliyinin əməkdaşlarına treninqlər keçirilir.

Sahibkarlıq sahəsində işlərin daha da gücləndirilməsi məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyinin strukturunda dəyişiklik edilib, Sahibkarlığın inkişafı siyasəti şöbəsinin maddi-texniki bazası və kadr potensialı gücləndirilib, 195-2 Çağrı Mərkəzinin səlahiyyətləri genişdirilib, Lisenziyalaşdırma və sahibkarlara xidmətlərin göstərilməsi şöbəsi yaradılıb.

**Yeni şöbə sahibkarlara və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə xüsusi razılığın (lisenziya) verilməsi sahəsində xidməti təşkil edəcək.**


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İcra başçısı 120 sahibkarın torpağını əlindən alır

## Ağcabədi Rayon İcra Hakimiyyətindəki mənimsəmələrin şok siyahısı "Yeni Müsavat"da; **Elqayıt Kərimov:** "Xahiş edirəm, araşdırılsın görək 5 diplomat pulu verən kimdir?"

**Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov 120 sahibkarın torpağını əlindən alır. Bu haqda qəzetimizə sahibkarlardan biri - rayonun Avşar kənd sakini Elqayıt Kərimov məlumat verib.**

Onun sözlərinə görə 13 aprel 2015-ci ildə sahibkarları İcra Hakimiyyətinə çağırıb: "Şahin Məmmədov hamının qarşısında dedi ki, 2008-ci ildə ona 5 diplomat pul veriblər ki, Haramı və Ergi torpaqlarını satsım. Lakin onu etmədim. Belə görünür ki, indi artıq diplomatların sayı artıb, ona görə Şahin Məmmədov 12 min hektar torpağı satmaq istəyir. Xahiş edirəm, araşdılsın görək 5 diplomat pulu verən kimdir?

Şahin Məmmədov Kür qırağında Ağcabədi rayonunun Sarcalı kəndinə məxsus olan 3 min hektar qış otlaq sahəsinin təyinatmı dəyişdirərək camaatdan alıb hansısa şirkətə satıb. Bu gün Şahin Məmmədov belə güman edir ki, o bütün Ağcabədini sata bilər. Ağcabədi rayonunun Kəbirli kəndindən də 2800 hektar torpaq satılıb".

Sahibkar prezidentə və baş prokurora müraciət edərək rayona ayrılan pulların mənimsənildiyini də açıqlayıb: Şahin Məmmədov prezidenti abadlıq üçün ayırdığı pulları mənimsəyib. Abadlıq işlərini sahibkarlara, mağaza sahiblərinə, idarə və təşkilatlara, məktəblərə, xəstəxanalara və s. gördürərək Prezidentimizin tərəfindən milyonlarla ayrılmış pulları mənimsəyir.

**2013-cü ildə Ağcabədi Rayon İcra Hakimiyyətinin fondundan saxta tender yolu ilə külli miqdarda pullar mənimsənilib və ayrı-ayrı kənd icra nümayəndələrinə saxta sənədlər tərtib etdirib. Belə ki:**

*1. Pərioğullar kənd icra nümayəndəliyinə 13200 manat*

*2. Salmanbəyli kənd icra nümayəndəliyinə 9400 manat*

*3. Şahsevən kənd icra nümayəndəliyinə 4200 manat*

*4. Yeniqaradolaq kənd icra nümayəndəliyinə 13200 manat*

*5. Hacıbədəlli kənd icra nümayəndəliyinə 29200 manat*

*6. Hüsülü kənd icra nümayəndəliyinə 15800*

*7. Qaradolaq kənd icra nümayəndəliyinə 13200 manat*

*8. Hacılar kənd icra nümayəndəliyinə 9400 manat*

*9. Minəxorlu kənd icra nümayəndəliyinə 9400 manat*

*10. Ağcabədi şəhər icra nümayəndəliyinə 85500 manat*

*11. Şərəfxanlı kənd icra nümayəndəliyinə 6800 manat*

*12. Kəbirii kənd icra nümayəndəliyinə 8400 manat*

*13. Boyad kənd icra nümayəndəliyinə 22500 manat*

*14. Ağcabədi rayon təhsil şöbəsi 25299 manat*

*15. Ağcabədi rayon Mədəniyyət şöbəsi 102624 manat*

*16. Ağcabədi rayon Təhsil şöbəsi Cavid Kİ MMC 113890 manat*

*17. Ağcabədi rayon Təhsil şöbəsi Əzim 3M MMC 112910 manat*



*18. Ağcabədi rayon Mərkəzi xəstəxanası Tünzalə V MMC 86900 manat*

*19. Ağcabədi rayon Mədəniyyət və Turizm şöbəsi Ülkər H MMC 47950 manat*

*20. Rasmik MMC-24 812 manat*

*21. Ağcabədi şəhər icra nümayəndəliyinə 650462 manat*

Cənab prezident, hörmətli baş prokuror, bu pullar iş görülmədən saxta sənədlərlə mənimsənilib! Xahiş edirəm bu faktlar araşdırılsın.

Cənab Baş Prokuror! Biz sahibkarlar haqqımızı və hüququmuzu müdafiə etmək məqsədilə sizə və Respublika Rəhbərliyinə müraciət etdiyimiz üçün Şahin Məmmədov tərəfindən təqib olunuruq, bizə qarşı şantajlar olunur. İndi Ş.Məmmədov heç bir əsas olmadan bir qrup sahibkarı məhkəməyə verib və deyir ki, mənim imkanlarım sizinkindən çoxdur, məhkəməyə təsir edərək sizi torpaqlarınızdan çıxardacam və sizə məxsus olan torpaqları satacağam".

**Sahibkarın sözlərinə görə baş prokurora ünvanladığı müraciətlər ünvana çatmır:** "Dövlət orqanlarına yazdığımız şikayətləri araşdırılmaq üçün Ağcabədi Rayon İcra Hakimiyyətinə göndərirlər. Şahin Məmmədov sizin işçilər tərəfindən müdafiə edilir. Korrupsiya faktı olduğu halda məktublar Əmlak Məsələləri Dövlət Komitəsinə, Ağcabədi rayon Prokurorluğuna və Ağcabədi rayon İcra Hakimiyyətinə göndərilib. Bu hansı qanunda var ki, Şahin Məmmədovdan şikayət edilsin, ərizə və şikayət Ş.Məmmədun özünə göndərilsin? Şahin Məmmədov vəzifəsindən istifadə edərək Ağcabədidə, Bərdədə və Gəncədə pay torpaqlarında böyük evlər tikdirib. Onun eyni zamanda Daşkəsəndə, Xoşbulaq yaylağında bir villası, Bakı şəhərində isə sayı məlum olmayan villa, ev və obyektləri vardır. O, xarici ölkələrdə, Batumidə, Dubayda, Almaniyada villalar alıb. Bütün bunlar üçün külli miqdarda vəsait xərclənib ki, Şahin Məmmədovun halal qazancı buna yetməz! Elə bunun özündə korrupsiya faktları görünür.

**Şahin Məmmədov Ağcabədi şəhərində yol kənarına arx çəkdirərək bildirir ki, guya kanalizasiya çəkdirib.** Həmin arxlara uşaqlar düşür zədələnir, maşınlar düşür zədələnir. Həmin dırnaqarası kanalizasiyalar ayrı-ayrı idarə və təşkilatlara çəkdirilir. Dövlətdən ayrılan külli miqdarda vəsait isə Şahin Məmmədovun şəxsi vəsaitinə çevrilir. O, 10 ildə heç bir iş görməmiş və bütün idarə və müəssisələrin hesabında olan vəsaiti mənimsəmişdir".

**Sahibkar prezidentin Ağcabədinin adablaşdırma üçün ayırdığı milyonlarla vəsaitin də mənimsənildiyini bildirib:** "Prezidentimiz tərəfindən ayrılan vəsaitin hara və necə xərclənməsi yerində yoxlanılsın. Həmin pulların Şahin Məmmədov tərəfindən mənimsənildiyi o zaman məlum olacaq. Ağcabədi rayonunu içməli su ilə təmin etmək üçün Qarqar çayı sahilindən 3 ədəd artezian quyusundan 16 km su kəməri çəkilib. Şahin Məmmədov artezian quyularını bu yaxınlarda çobanlara satıb! 16 km çuqun boru isə çıxardıraraq I milyon manata satılıb. Qaradolaq, Mehrablı, Yeniqradolaq və Aran kəndlərinə içməli su üçün külli miqdarda vəsait ayrılmış, isə görülmədi. Xahiş edirəm ayrılmış pulların hara xərcləndiyi araşdırılsın. Hüsülü - Qiyamadınlı yolunun təmirinə 5 milyon manat pul ayrılıb. Yolun təmiri Ağcabədi rayon yol tikinti idarəsi tərəfindən görüldü, amma yolun təmirinin Şahin Məmmədova məxsus olan "Fərid MMC" tərəfindən həyata keçirildiyi sənədləşdirərək pullar mənimsənilildi. Yolda çayın üzərindən körpü tikilməsi nəzərdə tutulurdu. Lakin körpü tikilmədi. Xahiş edirəm yoxlanılsın görək körpüyə ayrılmış pullar kim tərəfindən mənimsənilib?

2014-cü ildə Ağcabədi rayonunda Şahin Məmmədovun rəhbərliyi altında tikilən məktəbin heç birində sığınacaq tikilməyib və ayrılan pullar mənimsənilib. Məktəb binaları bərbad haldadır. Bildirirəm ki, Ağcabədi rayonunun Hüsülü, Muğanlı, Təzəkənd, Minaxor, Arasbar, Qiyamadınlı, Mirzaverdili, Kürdlər, Kəhirli və Şərəfxanlı kənd yolları əsaslı təmirinə 2014-cü ildə 5 milyon manat pul ayrılıb. Kəndlərə yol çəkilməyib və 2014-cü ildə yollar istifadəyə verilib. Qarqar çayının üstündən körpü salınmayıb. Şahin Məmmədov deyir ki, pullar qurtardı. Rayonun Avşar, Salmanbəyli, Taymaq, Hacıbədəlli və Şənlik kəndlərinin yolları bərbad haldadır. Şahin Məmmədov bildirir ki, vəsait yoxdur. Xahiş edirəm bu fakt yoxlanılsın və 2 milyon 700 min manat pulun verilməsi dayandırılsın! Şahin Məmmədov haqda ciddi tədbir görülsün".

Sahibkar deyir ki, Ş.Məmmədov onların dövlət qurumlarına yazdıqları şikayətlərin qarşısını alır:

"Şahin Məmmədovun çirkli pulları ərizələrin yoxlanılmasına imkan vermir, ərizələrimiz Şahin Məmmədovun üstünə göndərilir. O isə şikayətlərimizə cavab vermir".

❑ **E.HÜSEYNOV**

# "Eldar Mahmudov kimi riyakarın..."

## **Əli Hüseynli:** "Onun fəaliyyəti ilə ölkəmizdəki ictimai-siyasi sabitliyin və təhlükəsizliyin heç bir əlaqəsi olmayıb"

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Qafqazinfo"ya müsahibə verib.**



Əli Hüseynli

***- Əli müəllim, artıq bu gün seçki təbliğatının sonuncu günüdür və beynəlxalq müşahidəçilər Azərbaycana gəlməkdədirlər Seçki gününə qədər olan bu dövrü necə dəyərləndirirsiniz?***

- Ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik, əmin-amanlıq seçki öncəsi mühitə də öz müsbət təsirini göstərməkdədir. Təssüf ki, son illər seçkilər zamanı qonşu ölkələrdə baş tutmuş, Azərbaycanda isə cəhd edilmiş "məxməri inqilablar" sağlam siyasi rəqabətə ciddi kölgə salmışdır. Bəzən insanlara elə gəlirdi ki, seçki prosesi zamanı mütləq qarşıdurmalar olmalıdır. Amma, xalqımızın yüksək siyasi mədəniyyəti və dövlətçilik təfəkkürü indiki parlament seçkiləri ərəfəsində də özünü göstərməkdədir. Seçki prosesi dövlətin siyasi həyatının vacib, amma bir elementidir və bu sivil şəkildə həyata keçirilməlidir.

***- Əvvəllər də parlamentdə seçkinin nəticələrinə uyğun olaraq YAP üzvləri çoxluq təşkil edirdi. Hakim partiyanın üzvü kimi bu seçki ilə bağlı proqnozlarınız necədir?***

- Ölkə prezidenti cənab İlham Əliyev həmçinin Yeni Azərbaycan Partiyasının sədridir. Cənab prezident isə xalq arasında çox yüksək nüfuza malikdir. Bu baxımdan bütün respublika üzrə seçicilər əsas etibarilə hakim partiya üzvlərinə, bəzi yerlərdə isə Prezidentin siyasətini dəstəkləyən bitərəf namizədləri dəstəkləyirlər. Bunu mətbuatda işıqlandırılan seçki təbliğatı prosesində də müşahidə etmək mümkündür.

***- Amma bir sıra ekspertlər bunu hakim partiyanın və bitərəflərin güclü müxalif rəqiblərinin olmaması ilə əlaqələndirirlər. AXCP əvvəlcədən seçkiyə qatılmadı, Müsavat partiyası isə bu günlərdə seçki prosesini tərk etdi.***

- Bu partiyaların 90-cı illərin əvvəllərində yarıtmaz, bəzən isə xəyanətkar fəaliyyəti bütün Azərbaycan xalqına məlumdur. Yeni formalaşan nəsil də onları yaxşı tanımağa başlayıb. Onlar hansı güclü rəqabəti təşkil edə bilərdilər ? Misal üçün, bitərəf namizəd Ülvi Quliyevin nəinki özü, hətta idmançı tələbələri belə onun dairəsində rəqib olmuş İsa Qəmbərovdan daha nüfuzludurlar. Əslində, AXCP daha öncə, Müsavat partiyası isə bir az gecikmiş də olsa anladılar ki, seçkilərdə onların heç bir şansı yoxdur. Onların bir neçə gün əvvəl keçirdikləri iki yüz adamdan ibarət mitinqi isə müxalifətin nəinki bu seçkidə, bütövlükdə iflasa uğradığını bir daha sübut etdi.

Həmçinin qeyd etməliyəm ki, Azərbaycan vətəndaşları Yaxın Şərqdə bölgəmizdə baş verən hadisələr fonunda cənab Prezidentin necə müdrik xarici siyasət yürütdüyünə bir daha əmin olublar. İqtisadi böhrana baxmayaraq, ölkəmizdə ümumən iqtisadi inkişaf tempinin qorunub saxlanması isə daxili proseslərə müsbət təsir göstərir. Eyni zamanda, cənab prezident tərəfindən son dövrlər həyata keçirilən keyfiyyətcə yeni idarəetmə islahatları və kadr dəyişiklikləri, xüsusən də Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyinin dəyişdirilməsi, korrupsiyaya qarşı mübarizə ilə bağlı yeni addımlar, verilmiş fərmanlar və sərəncamlar əhali arasında daha da böyük ruh yüksəkliyi yaratmışdır.

Çünki hazırda korrupsiya və qanunsuz halların qarşısının alınmasında Prezidentin ən yaxın yardımçıları məhz insanlar özləri, ölkə ictimaiyyəti, və obyektiv araşdırıcı mətbuatdır.

***- Dövlətin və insanların təhlükəsizliyini qorumalı olan orqanda artıq geniş ictimaiyyətə də məlum olan belə halların aşkarlanması insanları həm də narahat edir.***

- Əlbəttə cinayətkarlığa qarşı mübarizədə güc strukturlarının, hüquq-mühafizə orqanlarının hər zaman rolu olmuşdur və bu cəmiyyət tərəfindən dəyərləndirilir. Amma sabiq Milli Təhlükəsizlik naziri Eldar Mahmudov kimi riyakar şəxsin fəaliyyəti ilə ölkəmizdəki ictimai-siyasi sabitliyin və təhlükəsizliyin heç bir əlaqəsi olmayıb. Azərbaycan dövlətçiliyinin, ölkəmizdəki sabitliyin, təhlükəsizliyin və inkişafın qarantı ölkə prezidentidir və onunla xalq arasında mövcud olan birlikdir. Məhz bu səbəbə görə nə xaricdən hər hansı bir qüvvələr, nə də ki ölkə daxilində baş verən bir sıra bu cür neqativ hadisələr ümumi müsbət ab-havaya təsir edir. Əksinə, zaman-zaman dövlətçiliyimizin inkişafı yolunda rast gəlinən bu cür maneələr aradan qalxdıqca xalqımızın ölkə prezidenti İlham Əliyevə və onun siyasətinə olan inamı daha da artmaqdadır.

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015

# Müsavat namizədlərinin ərizələri qəbul edilmədi

## Daha bir partiya seçkidən çəkildi, birinin isə eyni addımı atması bu gün gözlənilir

**Müsavat Partiyasının parlament seçkilərindən geri çəkilmək barədə qərar verməsindən sonra keçən iki gündə 25 namizədinin əksəriyyəti namizədliklərini geri götürdükləri barədə rəsmi ərizə ilə müvafiq Dairə Seçki Komissiyalarına müraciət edib. DSK-lar isə Seçki Məcəlləsinin pozaraq ərizələri götürməkdən imtina eləyirlər. Bu barədə Müsavatın Mərkəzi Seçki Qərargahından məlumat verilib.**

**Müsavat Partiyasının 15 saylı Yasamal seçki dairəsindən namizədi İsa Qəmbərin və 33 saylı-Xətai Birinci Seçki Dairəsindən namizəd, Müsavat başqanı Arif Hacılının namizədliklərini geri götürməklə bağlı ərizələri DSK-larda qəbul edilməyib.**

DSK-lar bəyan ediblər ki, artıq namizədliyin geri götürülməsi Seçki Məcəlləsinə uyğun deyil. Seçki Məcəlləsinə görə, seçkiyə 10 gün qalmış namizədliyi geri götürmək olar.

Müsavat Partiyası Mərkəzi Seçki Qərargahının rəhbəri, keçmiş MSK üzvü Gülağa Aslanlı isə bildirdi ki, DSK-lar ərizələri qəbul etməməsi Seçki Məcəlləsinin, Konstitusiyanın açıq-aşkar pozulmasıdır: "Seçki Məcəlləsində göstərilir ki, hətta seçkiyə bir gün qalmış belə, namizədin qeydiyyatı məhkəmə tərəfindən ləğv edilə bilər. Seçki Məcəlləsinin 113.4 maddəsində qeyd olunur ki, namizədin qeydiyyatı səsvermə gününə 10 gündən az qalmış müddətdə ləğv edildikdə bu haqda məlumat seçki məntəqələrindəki məlumat lövhələrində yerləşdirilir. Bu tələbə nə MSK, nə DSK-lar məhəl qoymur".

Namizədliyini geri götürməyən və sonadək seçkidə iştirak edənlərlə bağlı hansı addımlar atılacağına gəlincə, G.Aslanlı bildirdi ki, onlar haqqında 1 noyabrdan sonra danışacaqlar.

**115 saylı Şəki seçki kənd seçki dairəsindən namizəd İkram İsrafil isə Müsavatın rəhbərliyinə müraciət edib.** İ.İsrafil bildirib ki, Müsavat Partiyasının Divanı onun təşviqat kampaniyası dövründə keçirdiyi görüşləri, insanlara verdikləri vədləri nəzərə almalıdır: "Namizəd olduğum 115 saylı Şəki kənd ikinci Seçki Dairəsində apardığım kampaniya və görüşlərdən məlumatınız var. Şəkidən 80 km uzaqlıqda olan kəndlərin də hər birində görüşlər keçirmişik. Dairə ərazisindəki minlərlə ailədə olmuşuq. İnsanlara yaşadıqları problemləri həll edəcəyimizə söz vermişik. Bu insanlar ümidlə seçkiyə gəlib mənə səs verəcəklərini gözləyirlər. Əlbəttə ki, Müsavat Partiyasının Divanının qərarında göstərilən məsələlər həllini tapmamış qalmaqdadır. İnanıram ki, Müsavat Partiyasının Divanı yuxarıda qeyd etdiyim və etmədiyim məsələləri nəzərə alacaq və mənim seçkidə iştirakımı partiyaya tabesizlik kimi qəbul etməyəcək. Mən Müsavat Partiyasının Divan üzvüyəm və partiyaya sadiqəm".

**Gülağa Aslanlı:** "Seçkidən çəkilməyənlərlə 1 noyabrdan sonra danışacağıq"

İ.İsrafil oktyabrın 29-da facebookda oğlu İsrail İsrafilin onun seçicilərlə görüşlərin birindən çəkilmiş video ilə bərabər yerləşdirdiyi fikirlərin bəzi media orqanlarında yanlış olaraq İkram İsrafilin fikirləri kimi təqdim edildiyini də bildirdi: "O fikirlər mənə aid deyil. Media yanlış olaraq oğlumun yerləşdirməsini mənim olaraq təqdim edib".

**Müsavat Partiyası Mərkəzi Nəzarət-Təftiş Komissiyasının sədri Sevinc Hüseynova isə APA-ya açıqlamasında bildirib ki, İ. İsrafilin namizədliyini geri götürməməsi partiya Nizamnaməsinin pozulmasıdır:** "Sən üzvü olduğun partiyanın qərarlarına hörmət etmirsənsə, onun etimadını yerə vurursansa, seçicinin etimadını necə qazanacaqsan? Digər tərəfdən, Müsavat Nizamnaməsinin 7-ci bəndində göstərilir ki, partiya üzvü partiyanın qərarlarına əməl etməlidir. İkram İsrafil isə Nizamnaməni pozur. Qərarını dəyişməyəcəksə, təbii ki, İkram İsrafilin məsələsinə baxılacaq və ya Divan öz münasibətini bildirəcək".

Müsavatın namizədləri içərisində seçicilərlə ən çox görüş keçirən namizədlərdən sayılan **71 saylı Masallı seçki dairəsindən namizədi Xasay Fərzulla** isə seçkidən geri çəkilməklə yanaşı, seçicilərinə müraciət ünvanlayıb.

Müsavat Məclisin üzvü Mirbaba Babayev isə Müsavatın qərarına münasibətini belə ifadə edib: "Müsavat rəhbərliyi mümkün olan variantların ən optimalını seçdi. Həm seçkiləri boykot etdi, həm də seçki kampaniyasında iştirak edib (imzatoplama mərhələsində, seçicilərlə görüşlərdə və s.) xeyli insanla təmaslar qurdu, hakimiyyətin seçkilərlə bağlı fəaliyyətinin artan xətlə gedən qanunsuzluqlarını ortaya qoydu. Müsavat partiyasına, müxalifətə qərəzsiz yanaşan adam bunu inkar etməz".

**Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü, vəkil Namizəd Səfərov** da Müsavatın bu qərarını müsbət dəyərləndirib: "Bu, hakimiyyətin yalançı seçki oyunlarına onların məntiqi cavabıdır və gözlənilən qərar idi. Müsavat Partiyasının seçkiləri boykot etməsi ilə bağlı bəyanatına MSK-nın reaksiyasına fikir verdinizmi?! Bu riyakarlığın, yalan və ikiüzlülüyün ən bariz nümunəsidir. Müsavat Partiyası da bütün bunları sonacan diqqətlə müşahidə edərək sonda məntiqi və düzgün qərar qəbul etdi".

Milli Şura ilə Müsavat Partiyasının münasibətlərinə toxunan tanınmış vəkil bildirib ki, Milli Şura Müsavatla hər hansı əməkdaşlıqdan heç vaxt birdəfəlik imtina etməyib: "Bu əməkdaşlığın bərpa olunması həmişə mümkündür. Sadəcə bir sıra ciddi məsələlərdə mövqelər aydınlaşdırılmalıdır. Müsavatın heç bir məntiqi səbəb göstərmədən Milli Şuranı müəmmalı şəkildə tərk etməsi bu qəbildən olan aydınlaşdırılmalı məsələlərdəndir".

**Dünən daha bir partiya seçkidən geri çəkildiyini bəyan edib.** Gələcək Azərbaycan Partiyası (GAP) 1 noyabr seçkisində iştirakdan geri çəkildiyinə dair bəyanat yayıb. Bəyanatda deyilir ki, GAP mövcud seçki qanunvericiliyi ilə ölkədə demokratik parlament seçkilərinin keçirilməsini mümkünsüz hesab edir. Partiya siyasi və vicdan məhbuslarının azad olunmadığını; demokratik təsisatların təzyiq altında saxlanıldığını; seçicilərlə görüşə maneələr yaradıldığını; hakimiyyətinin beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəliklərə əməl etmədiyini və beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymadığını; ATƏT DTİHB-ə seçkini müşahidə etmək imkanının verilmədiyini və başqa maneələri nəzərə alaraq, seçki prosesində iştirakdan imtina edir. GAP partiya tərəfindən namizədliyi irəli sürmüş və qeyd alınmış şəxslərə seçki prosesində fəaliyyətlərini dayandırmağı tapşırıb.

Bəyanatın sonunda başqa namizədlərə də çağırış edilir ki, beynəlxalq ictimaiyyətin əvvəlcədən sual altına aldığı, legitimliyinin tanınmayacağı seçki prosesində iştirakdan imtina etsinlər.

Partiya həmçinin hakimiyyəti 1 noyabr seçkisini təxirə salmağa və müvafiq islahatlardan sonra keçirməyə çağırıb.

**"Azadlıq 2015" seçki blokunun üzvü olan VİP-in sədr müavini Büllur Hümbətov** isə seçkilərin demokratik keçirilməsi üçün hakimiyyətin və MSK-nın reaksiya verməməsinə etiraz olaraq

MSK-nın verdiyi səlahiyyətli nümayəndə statusundan imtina edib. B.Hümbətov eyni zamanda ölkədə siyasi təşkilatlara ayrı-seçkilik göstərildiyinə görə VİP-də tutduğu vəzifələrdə fəaliyyətini dayandırdığını bəyan edib. O, VİP-in rəhbərliyinə tövsiyə edib ki, seçki tamaşasının heç olmasa sonuncu səsvermə mərhələsində iştirakdan imtina etsinlər.

❑ Etibar SEYİDAĞA



# Müsavat namizədi seçkilərdən geri çəkildi və seçicilərinə səsləndi

## Xasay Fərzulla partiyanın qərarını dəstəklədi; "Yaxın gələcəkdə təkrar görüşəcəyik..."

**Məlum olduğu kimi, Müsavat Partiyası oktyabrın 28-də iki gün sonra keçiriləcək parlament seçkilərində iştirakdan rəsmən imtina edib. Qurumun seçkilərdə iştirak edən namizədləri artıq prosesdən geri çəkilməyə başlayıblar.**

Müsavatın Masallı rayon təşkilatının sədri, partiyanın 71 saylı Masallı kənd seçki dairəsindən namizədi Xasay Fərzulla sosial şəbəkələrdə iddiasını geri götürməklə bağlı status paylaşıb. O, seçicilərə müraciətində qərarını belə əsaslandırıb:

"Hörmətli bacı və qardaşlarım, dəyərli seçicilərim, sizləri salamlayıram. Bildiyiniz kimi, 1 noyabr 2015-ci il tarixdə keçiriləcək Milli Məclisə seçkilərdə Müsavat Partiyasının namizədi olaraq, 71 saylı Masallı kənd seçki dairəsindən namizədliyim qeydə alınmışdı. Seçki prosesinin təbliğat dövründə sizlərlə çoxsaylı görüşlər keçirdim, bir-birimizi dinlədik, özümün və Müsavat Partiyasının mövqeyini sizlərə çatdırdım. İllərdir hakimiyyət tərəfindən seçkilərin saxtalaşdırılması səbəbindən yaranmış inamsızlığı dağıtmağa çalışdım.

Bu günə qədər sizlərin münasibətindən və dəstəyinizdən razı qaldım. Lakin hakimiyyətin seçki qanunlarına əməl etməməsi, yaradılan süni maneələr, azad seçki üçün normal şəraitin yaradılmaması səbəbindən Müsavat Partiyası seçkilərdə iştirakını dayandıraraq seçkilərdən rəsmən imtina etdi. Bunu əsas götürərək, mən də partiyanın üzvü olduğum üçün namizədliyimi geri götürmək haqqında qərar verdim.

Bizlər hesab edirik ki, bu gün seçki mühiti yoxdur və onun yaradılması üçün hakimiyyət nəinki çalışmır, hətta bunu yaratmaq istəyənlərə maneələr və müxtəlif psixoloji təzyiqlər göstərir. Namizədlərə bərabər şəraitin olmaması, son 24 ildə ilk dəfə pulsuz efir vaxtının ləğv olunması, siyasi məhbus probleminin həll edilməməsi təyin etdiyim məşvərətçilərin səlahiyyətlərinin qanunsuz olaraq ləğv edilməsi, yerli icra orqanlarının birbaşa və dolayısı yolla seçki prosesinə müdaxiləsi seçkilərin hakimiyyət namizədinin xeyrinə saxtalaşdırılacağına tam əminlik yaradır.

Müsavat Partiyası belə antidemokratik seçkinin dayandırılmasını, 4 aydan sonra təkrar seçkilərin keçirilməsini tələb edir. O üzdən mən sizlərin seçkidə iştirak edərək gözlənilən növbəti seçki saxtakarlığını həyatınızda bir daha yaşamağınızı istəmirəm və Müsavat Partiyasının haqlı tələblərini müdafiə edərək hakimiyyətdən demokratik seçki keçirməyi tələb edirəm.

**Bu günə qədər göstərdiyiniz dəstəyə görə hər birinizə minnətdarlığımı bildirirəm. Mənə sizin vəkiliniz olmaq, sizin dəstəyinizi istəmək şərəfdir. Biz müsavatçılar daim sizlərin qeyri-rəsmi vəkiliniz olaraq haqlının yanında, haqsızın qarşısında olduq və bundan sonra da olacağıq. Mübarizə davam edir. İnşallah, sizinlə yaxın gələcəkdə təkrar görüşəcəyik. Allah bizləri haqsızlığa qarşı mübarizə yolumuzdan sapdırmasın. Son nəfəsimizə qədər ləyaqətli mübarizə yolu tək amalımızdır. Tanrı Sizləri qorusun! Tanrı Azərbaycanı qorusun!".**

❑ Cavanşir ABBASLI

# “Sahibkarlara azadlıq” kod adlı əməliyyat - sirr pərdəsi qalxır

**İki həftə ötdü. Düz 14 gündür, Azərbaycan cəmiyyəti bu şokun təsirindən çıxa bilmir. Milli Təhlükəsizlik Nazirliyində (MTN) baş verən məlum işdən çıxarmalar və həbslər gerçəkdən də şok effekti verib. Bizim ölkə belə sensasion işdənçıxarılmalara, həbslərə o qədər də öyrəncəli deyil. Cəmiyyətimiz əsasən müxalifət mövqeyində olan siyasilərin, jurnalistlərin, QHT rəhbərlərinin həbsinə vərdiş edib. Siyasi nədənlərlə bəzən bir müxalifətçi ailəsindən bir neçə adam həbsxanaya göndərilib.**




# “MTN işi”ndə WikiLeaks variantı - şok iddia

## Milli Təhlükəsizlik Nazirliyində ifşa olunan çete ən strateji sirləri yaymağı planlaşdırırmış; cəmiyyəti şokedici məlumatlarla qarışdırmaq və Azərbaycanda xaos yaratmaq planının arxasında hansı dövlətlər dayanıb? Prezident İlham Əliyev Eldar Mahmudovun dövlət əleyhinə yaratdığı “dərin dövləti” necə viran qoydu...

**Bu həbsləri, təqibləri adi qarşılayır azərbaycanlılar. Amma dövlətin təpəsindəki qalmaqallı həbs və işdən alınmalar bizim insanlar üçün sıradan olay sayılmır. Baxmayaraq ki, indiyədək bu cür situasiyalarla qarşılaşıb. Amma bunların ən axırıncısının üstündə 9-10 il keçdiyi üçün bir qədər unudulub, köhnəlib.**

***

2005-ci ilin martında Hacı Məmmədov olayına görə ölkə bir-birinə dəymişdi. Bu olayın şoku millətin canından çıxmamış, həmin ilin oktyabrında daha bir səs-küylü həbslər oldu. İqtisadi inkişaf naziri Fərhad Əliyevlə o zamankı səhiyyə naziri Əli İnsanov kabinetlərindəcə qandallanaraq MTN-nin təcridxanasına aparıldılar. Onlar tək deyildilər - özləri ilə bərabər xeyli qohum-əqrəbaları, dost-tanışları da türməyə salındı.

10 il öncə bu günlər də dünən hökm verib, bu gün istintaqda müstəntiqlərə ifadə verənlərin sayı günbəgün artırdı. Fəqət vəziyyət bu qədər dramatik deyildi. Ən azından ona görə ki, həbs edilənlər mülki nazirliklərin rəhbərləri idi. Ə.İnsanov da, F.Əliyev də güc strukturlarına başçılıq edən general rütbəli məmur deyildilər. Bu üzdən də onların həbsi insanlarda təəccüb doğursa da, həbslərin əhatə dairəsi genişlənmədi - başqa nazirliklərdə gecəyarı əməliyyatlar keçirilib hansısa idarə rəisləri, aparat rəhbərləri, general rütbəli məmurlar dama doldurulmadı.

Hazırkı vəziyyət isə tamam fərqlidi. Bunca həbslərə, işdən çıxarılmalara rəğmən dövlətin təbliğat maşınları - telekanallar və iqtidar mətbuatı olayı sadəcə seyr edir. Sanki bunca sensasion həbslər uzaq Afrika qitəsinin hansısa geridəqalmış dövlətində baş verir. 2005-ci ildə isə Az.Tv başda olmaqla, bütün tv-lər və hökumət qəzetləri həbs edilən nazirlərin xəyanətləri haqda serial süjetlər verirdilər. “Az.Tv İbrahim”in Əli İnsanovun bağ evindən hazırladığı reportajlar yəqin hələ də xatirələrdən silinməyib. Fərhad Əliyevin siyasi dönüklüyü barədə yazılan məqalələr də unudulmayıb güman ki...

Bəs indi niyə ictimaiyyətə bilgi verilmir? Nədən Eldar Mahmudov və onun işdən çıxarılaraq həbs edilmiş komanda üzvləri barədə iqtidar KİV-lərində məqalələr yazılmır, süjetlər getmir?

***

Bəziləri dövlətin bu susqunluğunun səbəbini seçki ilə izah edirlər. Guya 1 noyabrda keçiriləcək parlament seçkilərindən sonra növbəti həbs dalğası olacaq. Bundan sonra da yuxarıda haqqında söhbət açdığımız media cəbhəsi işə düşəcək. Xatırladaq ki, 2005-ci ilin bu günlərində də ölkəmiz parlament seçkiləri ərəfəsində idi. Üstəlik, müxalifət o zaman daha güclü, daha mütəşəkkil və iqtidara daha çox problem yaradacaq performansda idi.

Görünür, hazırda elə bir spesifik vəziyyət yaranıb ki, hakimiyyət hazırkı taktikanı seçməklə öz içində təmizləmə işləri aparır. Yaranmış həmin spesifik vəziyyət nədir - bax, onu hələlik kimsə bilmir.

**Artıq MTN-dəki həbslər digər nazirliklərə də sıçrayıb. Vergilər Nazirliyinin idarə rəisi, general Vidadi Məmmədovun həbsindən sonra Rabitə və Yüksək Texnologiyalar Nazirliyində (RYTN - qısa olsun deyə Rabitə Nazirliyi) də həbs olunanlar var.** Bu haqda ötən sayda geniş məlumat vermişdik. Xatırladaq ki, Rabitə Nazirliyinin Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzinin direktoru Cəlil Cəfərov oktyabrın 28-də həbs edilib. Onun rəhbərlik etdiyi idarənin bir sıra funksiyaları var. Cəlil Cəfərovun rəhbərlik etdiyi idarənin beynəlxalq telefon danışıqlarını dinləmək imkanları var. C.Cəfərovun nəyə görə tutula biləcəyini təxmin etmək o qədər də çətin deyil. Məntiq deyir ki, məhz bu məmurun əli ilə Azərbaycanın dövlət rəhbərliyinin beynəlxalq telefon danışıqları, e-mail yazışmaları, internet üzərindən aparılan pul hesablaşmaları və s. dinlənilib, nəzarətə götürülüb.

Həmçinin ötən həftə Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) rəhbəri Beytulla Hüseynov da işdən çıxarılaraq həbs edilib. Bütün bunlar deməyə əsas verir ki, “MTN işi” sahibkarlara görə başladılmayıb. Əgər bu həqiqətən də sahibkarlara görədirsə, o zaman niyə Rabitə Nazirliyində bu həbslər baş verdi? Rabitə ilə sahibkarlıq arasında hansı əlaqə var? “Rabitəçi oğlanlar” sahibkarlara hansı maneələri yaratmaq imkanlarına sahibdirlər?

***

RN-nin həbs edilən hər iki idarə rəisinin dinləmələrdə şübhəli bilindikləri deyilir. Onların hidrooptik kabellərə nəzarət etmək imkanlarının olduğu da söylənir. Bu növ kabellərin üzərindən internet yazışmalarını və üç nömrə dövlət telefonlarını dinləmək olduqca asandır.

Rabitə Nazirliyindəki həbslərin MTN-dəki həbslərlə birbaşa əlaqəsinin olduğu şübhəsizdir. Bu iki nazirlik belə çıxır ki, əl-əl verib “dərin dövlət” yaradıblar. Amma görünür, onların yaratdığı “dərin dövlət” elə dövlətin özünə qarşı olub.

Bizdəki məlumatlara görə, Eldar Mahmudovun rəhbərlik etdiyi bu çete Azərbaycanda ciddi anti-dövlət projesi hazırlayırmış. Plana görə, ölkənin birinci şəxsi daxil olmaqla, bütün dövlət ərkanının telefon danışıqları, elektron yazışmaları total nəzarət altında olub. Həmçinin pul köçürmələri, bank hesabları da kontrolda imiş. Bu çete əlinin altında nəhəng məlumat bankı yaradıb, sonradan həmin “bank” vasitəsilə cəmiyyətə şokedici informasiyalar ötürüb ajiotaj, qarşıdurma yaradacaqmış. Məsələn, hansısa nazirin telefon danışığı, dövlətin ən təpəsindəki məmurların kimlərləsə dialoqu, e-mail yazışmaları, şəxsi bank hesabları - bütün bunlar günün birində cəmiyyətə ötürülür, aləm dəyir bir-birinə... Eynilə WikiLeaks saytında ABŞ məxfi məlumatlarının bütün dünyaya yayılması kimi...

Assancın vasitəsi ilə ABŞ-ın diplomatik korpuslarının məxfi yazışmalarının yayılmasının yaratdığı şoku hələ də keçməyib. WikiLeaks saytı üzərindən yayılan həmin məxfi məlumatlardan sonra dünyada çox ciddi dəyişikliklər, təlatümlər yaşandı. İndi təsəvvür edin, Azərbaycan iqtidarında təmsil olunan şəxslərin məxfi telefon və internet yazışmaları, pul transferləri və digər gizli əməliyyatları haqda cəmiyyətə məlumatlar sızdırılsa, nələr olar... MTN-nin bütün bunları həyata keçirəcək kifayət qədər media resursu var. Ona görə də “MTN işi”ndə reket medianın da başının ağrıyacağı xəbərləri boşuna yayılmayıb. İnformasiya müharibəsinin dalınca başqa bir müharibənin başlamayacağına kim qarantiya verər bilər?

***

Bu arada, ötən saylardan birində E.Mahmudovun ölkədəki ictimai-siyasi proseslərə müdaxiləsi haqda epizodik də olsa yazmışdıq. Bu barədə AXP sədri Pənah Hüseyn də son müsahibəsində bəzi ipucları verib. Həmin məlumatlara görə, avqustda prezident yanında müşavirədə PA rəsmilərinin iqtidar-müxalifət təmaslarının vacibliyi, müxalifətin parlamentdə təmsil olunmasının mümkünlüyü haqda dediklərinə E.Mahmudov opponentlik edib. Bildirib ki, bu görüşlər iqtidarın mənafeyi baxımından ziyanlıdır və dərhal dayandırılmalıdır. O, fikrini əsaslandırmaq üçün həmin görüşdə iştirak edən partiya sədrlərindən birinin ölkə başçısı haqda tənqidi fikrini söyləyib. Ekspertlər iddia edir ki, MTN və onun rəhbərliyi bu yolla iqtidarla müxalifət arasındakı təmasları, ümummilli məsələlərdə uzlaşmalarını əngəlləmək məqsədi güdüb. Və bununla da ölkədə gərginliyin qalmasında maraqlı olub.

Son 14 günlük təhlil deməyə əsas verir ki, prezident İ.Əliyev böyük bir təxribatın, xain planın üstünü açaraq onun qarşısını alıb. Dövlətin Eldar Mahmudova qəzəbi, nifrəti isə göz qabağındadır. İki gün öncə sabiq nazirin akademik atasının Naxçıvandakı büstünün uçurdulması barədə məlumatlar yayıldı. Adətən bu cür davranış öz dövlətinə və liderinə xəyanət etmiş şəxslərə tətbiq edilir...

**Bütün bu xain planın arxasında isə mütləq hansısa dövlət, yaxud dövlətlər dayanıb. Yoxsa bu qədər miqyaslı işi bir neçə generalın ağılının məhsulu saymaq qeyri-mümkündür. Yəqin nə zamansa bu da bəlli olacaq.**

❑ Aydın ASLAN


İsa Həbibbəyli

# “Bunu məndən soruşmayın...”

## Naxçıvanlı alim Əhməd Mahmudovun heykəli haqqında danışmaq istəmir

**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun atası Əhməd Mahmudovun Naxçıvandakı büstünün uçurulması ölkə gündəminin haqqında ən çox danışılan məsələləri sırasındadır. Öncə onu qeyd edək ki, Şərurdakı Əhməd Mahmudovun adını daşıyan türk litseyinin həyətindəki büstün sökülməsi ilə bağlı informasiyalar ziddiyyətlidir. Naxçıvanda yaşayan ictimai fəal Həkimeldostu Mehdiyev Facebook sosial şəbəkəsində yazıb ki, heykəl Naxçıvan MR-in tikinti naziri Asəf Məmmədov başçılığı ilə sökülüb.**

Naxçıvandakı rəsmi qaynaqlar hələlik faktı təsdiq etməyib. Hətta dövriyyəyə alimin heykəlinin sökülməməsi haqqında xəbərlər buraxılıb. Müzakirələrdə daha bir sual oğlu işdən çıxarılan alimin heykəlinin sökülüb-sökülməməsinin nə dərəcədə normal olması ilə bağlıdır.

Azərbaycan elmi qarşısında xidmətləri olan və artıq dünyadan köçən alim nazir oğlunun hansısa hərəkətinə görə “cəzalandırıla” bilərmi? “Yeni Müsavat” bu sualla **Milli Məclisin üzvü, Naxçıvanın tanınmış ziyalısı, Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyliyə** müraciət edib. İsa Həbibbəyli bildirib ki, bu haqda Naxçıvandakı qaynaqlardan informasiya almamız yaxşı olar: “Bunu məndən soruşmayın. Mən Bakıda yaşayıram, Bakıda işləyirəm. Naxçıvanda nələrin baş verdiyindən xəbərsizəm. Son bir neçə gündə çox məşğulam. Film montajında iştirak edirəm, dünən daha bir toplantıya qatılmışam. Ona görə də olaylardan xəbərsizəm”.

Isa Həbibbəyli dünyadan köçmüş alimin oğluna görə cəzalandırılması məsələsinə də münasibət bildirmək istəmədiyini deyib.

**Əhməd Mahmudov Azərbaycanın ünlü alimlərindəndir. 1923-cü ildə Naxçıvanın Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olan alim AMEA-ının İqtisadiyyat İnstitutunun direktoru, Akademiyanın həqiqi üzvü olub. Professor Əhməd Mahmudov 1989-cu il may ayının 8-də Bakı şəhərində vəfat edib. Fəxri Xiyabanda dəfn olunub.**

❑ Musavat.com

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015

**Suriya hadisələri ilə əlaqədar Ankara və Moskva arasında əsən soyuq küləklər getdikcə güclənir. Putinin Suriyadakı İŞİD-çilərin mövqelərini Xəzər dənizindəki Rusiya donanmasından vurmaqla bağlı əmrindən sonra Türkiyə dövləti Kremli verdiyi vədlərə əməl etməməkdə qınayıb. Növbəti açıqlama isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğandan gəlib.**

# Ankara və Moskva üz-üzə qalıb; Bakını nə gözləyir?

“Xəzər dənizindən Suriyaya raket atılması bizi narahat etdi”-deyə, Türkiyə prezidenti bildirib.

**R.T.Ərdoğan Türkiyə Cümhuriyyətinin qurulmasının 92-ci ili münasibəti ilə Ankarada keçirdiyi qəbulda bildirib ki, bu məsələ ilə bağlı Rusiya prezidenti Vladimir Putinlə danışıb:** “Bu məsələdən narahat olduğumuzu dedik. Bu axşam xarici işlər nazirləri Vyanada bir araya gəldilər. Orada toplantılar davam edir. Dar çərçivədə - Amerika, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə müzakirələri keçirilir. Bundan əlavə, 13 ölkənin iştirak edəcəyi geniş tərkibli yığıncaq təşkil olunacaq”. Bölgənin iki aparıcı güc mərkəzinin maraqlarının toqquşması şübhəsiz ki, Azərbaycana da təsirsiz ötüşə bilməz. Söhbət ondan gedir ki, həm Türkiyə, həm də Rusiya Azərbaycanı öz yanında görmək istəyir, ancaq indiki situasiyada Bakı proseslərə neytral qalmaqda israrlıdır. Üçüncü böyük qonşumuz İranın mövqeləri Suriya məsələsində Rusiya ilə üst-üstə düşür. Deməli, balans Azərbaycanın xeyrinə deyil. İndiki situasiya nə vəd edir?

**Politoloq Hikmət Hacızadə** bildirdi ki, istənilən halda Bakı Türkiyənin yanında olmalıdır: “Çünki indi Türkiyə haqqın yanındadır”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** isə qeyd etdi ki, Suriyaya görə Türkiyə ilə Rusiya arasında fikir ayrılığı getdikcə dərinləşir: “Rusiyanın hərbi təyyarələrinin iki dəfə Türkiyənin sərhədini pozması Ankaranı hərəkətə keçirdi və Kremlə bəyan edildi ki, bu olay yenə təkrarlansa təyyarə vurulacaq. Bu xəbərdarlıqdan sonra Rusiya təyyarələri Türkiyə ilə sərhəddən aralı uçmağa başladılar. Buna baxmayaraq, Rusiyanın Suriya müharibəsində Əsədi dəstəkləməsi Ankaranı əvvəlki tək narahat edir. Rusiyanın Xəzərdən Suriyanı raket atəşinə tutması Ankaranı Moskva ilə münasibətlərini yenidən dəyərləndirməyə məcbur edib. Nəticədə Türkiyə Rusiyanın ”Qazprom” şirkətinin beynəlxalq məhkəməyə verib. Məsələ burasındadır ki, sazişə görə “Qazprom” Türkiyəyə satdığı qazın qiymətini endirməli idi. 10 ay danışıqlar getdi və qiymətlər endirilmədi. Çünki Rusiya qiymət endirimi əvəzində Ankaranın “Türk axını” layihəsinə imza atmasını istəyir. Ankara isə tələsmir. Çünki bu, Moskvanın açıq-aşkar şantajıdır". **Ekspert deyir ki, əslində qaz danışıqlarını sakitcə davam etdirmək mümkün idi:** “Sadəcə, Ankara Moskvaya aydınlatmağa çalışır ki, Türkiyənin Rusiyadan qaz asılılığı olsa



**Hikmət Hacızadə:** “İndi Türkiyə haqqın yanındadır”



**Elxan Şahinoğlu:** “Azərbaycan bu durumda sadəcə hadisələri diqqətlə müşahidə etməli və tərəf tutmamalıdır”

da, bu ölkəyə dişlərini də göstərəcək. Moskva Əsədə dəstək verərkən bunun tərəfdaşı Türkiyənin xoşuna gəlməyəcəyini və bu durumun münasibətlərin soyuqlaşacağına yol açacağını anlamalı idi. Türkiyə ABŞ və ərəb ölkələri ilə birgə heç zaman Əsəd rejiminin güclənməsinə imkan verməyəcək. Təsadüfi deyil ki, Cumhurbaşqanı Ərdoğan istənilən anda Suriyada silahlı kürd qruplaşması olan PYD-nin mövqelərini bombalayacağını açıqlayıb. Bu, o qüvvədir ki, Rusiya prezidenti Vladimir Putin onlara da silahlı dəstək vermək istəyir. Bir sözlə Suriyada vəziyyət sabitləşməyənə qədər Rusiya-Türkiyə münasibətləri də getdikcə soyuyacaq”.

**E.Şahinoğlu Ankara-Moskva münasibətlərinin ölkəmizə də dolayı təsirlərinin olduğunu vurğuladı:** “Bu gərginliyin Azərbaycana da dəxli var. Çünki Türkiyə Azərbaycanın strateji müttəfiqi, Rusiya isə qonşusudur, hansı ki, onunla münasibətlərdə problem yaşamaq istəmir. Mən şübhə etmirəm ki, Rusiyanın Xəzərdən Suriyanı raket atəşinə tutması hamıya, o cümlədən Azərbaycana da əzələ nümayişi idi. Məqsəd hamıya göstərməkdir ki, Rusiya Xəzərdə hərbi hegemonluğa malikdir. Doğrudur, bununla bağlı rəsmi Bakının bir açıqlaması olmadı, ancaq Azərbaycan hakimiyyəti Rusiya hərbi gəmilərinin Xəzərdə fəallaşmasından narahat olmaya bilməz. Bir gün həmin hərbi gəmilərin Azərbaycanın Xəzərdəki yataqlarına tuş gəlməyəcəyini və ya işğalçı Ermənistana dəstək verməyəcəyini bəri başdan rədd etmək mümkün deyil. Buna baxmayaraq, rəsmi Bakı Suriya məsələsinə görə nə Türkiyə, nə də Rusiya ilə münasibətlərini gərginləşdirmək istəyir”. **Politoloq bildirdi ki, Azərbaycan Suriyadakı savaşda neytral mövqedədir, seçim etmək istəmir:** “Məncə, Azərbaycanın bu durumunu Ankara da anlayır. Məsələn, Ankara Bakıdan tələb edə bilməz ki, Rusiyanın bombardmanına etiraz etsin və ya Əsədi pisləsin. Biz bunu etsək, dərhal Rusiya ilə münasibətlərimizi gərginləşdirəcək və şimaldan bizə qarşı təhlükə artacaqdır. Məncə, belə bir təhlükənin artması Türkiyənin də maraqlarına cavab vermir. Ona görə də Azərbaycan bu durumda sadəcə hadisələri diqqətlə müşahidə etməli və tərəf tutmamalıdır. Ancaq Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadənin dilindən çıxan ”Rusiyanın İŞİD mövqelərini bombalamasını dəstəkləyirik" fikri də səslənməməli idi. Bəli, biz İŞİD terrorunun əleyhinəyik, ancaq eyni zamanda ondan az qətliam törətməyən Əsəd rejimini də dəstəkləməməliyik. Paşazadənin Rusiyaya dəstək ifadə edən açıqlamasından isə fərqli nəticə çıxır. Rusiya İŞİD-i bombalamaqla paralel olaraq Əsəd rejiminin güclənməsinə çalışır. Bizim isə Əsədə dəstək kimi dərdimiz yoxdur".

❑ **Cavid TURAN**

# “ABŞ adında dövlət başdan-ayağa ermənilərə işləyirsə...”

## ABŞ Senatının Azərbaycan əleyhinə keçirdiyi dinləmələr hakimiyyət daxilində narahatçılıq doğurub; qadın məhbuslarla bağlı çağırışlar



**Oktyabrın 28-də ABŞ Senatında Azərbaycanla bağlı dinləmələrin keçirilməsi barədə xəbər vermişdik. Ölkə həyatında mühüm rol oynayan parlament seçkilərinə az bir müddət qalmış Azərbaycan əleyhinə tədbirin təşkil olunması hakimiyyəti ciddi narahat edib.**

Rəsmi qurumların və iqtidaryönlü şəxslərin Senatın dinləmələri ilə bağlı mövqeləri üst-üstə düşür. Bu cür fikirlər mövqedən daha çox ittiham xarakteri daşıyır. Tədbiri keçirən senatorlar Mark Kirk və Kris Kunsun, eləcə də, təşkilatların ermənipərəst olmaları barədə iddialar ortaya atıldı. Hətta Azərbaycanının ABŞ-dakı səfirliyinin müşaviri Fəxrəddin İsmayılov açıqlamasında erməni lobbisinin bu təzyiqlərdə mühüm rol oynadığı barədə ciddi iddialar irəli sürdü. Bütün bunlar hakimiyyətin susqun görkəmi yaratmağa çalışsa da, əslində Senatda qəbul edilən qərarlardan narahatçılıq hissi keçirdiyini ortaya qoydu.

Senatın dinləmələrində əsas müzakirə mövzularından biri də qadın məhbuslarımız Leyla Yunus və Xədicə İsmayılla bağlı oldu. Hər iki qadın məhbusun azadlığa buraxılması ilə bağlı çağırışlar edildi. İnsan haqlarının pozulması və vətəndaş cəmiyyətinin üzvlərinin həbsi ilə bağlı da hakimiyyət tənqidlərə məruz qaldı.

Bəzi ekspertlər hesab edirlər ki, Senatın dinləməsinin məhz seçkilər ərəfəsinə salınması hakimiyyətin gələcəkdə üzləşə biləcəyi sanksiyaların anonsudur.

**Politoloq Ərəstun Oruclu** bildirdi ki, dinləmələrin keçirilməsi təzyiqlərdən çox xəbərdarlıq siqnalıdır: “Dinləmələrdə sanksiyalarla bağlı fikirlər səsləndi. Bildiyiniz kimi, 20 qadın senatorun Senatın Xarici Əlaqələr Komitəsinə müraciəti olmuşdu. Müraciətdə Azərbaycanda hakimiyyətə opponentlik edən qadınların həbsə atılması ilə bağlı ABŞ-ın xarici siyasətində real addımlar atılmasının vacibliyi göstərilirdi. Baş verənlərə ümumi bir kontekstdə baxmaq lazımdır. Bir-birindən sıx əlaqəli proseslərdir. Çox güman ki, ABŞ-ın yüksək dairələrində ciddi tədbirlər keçirilməsi nəzərdən keçirilir. Hakimiyyət nə qədər desə ki, bunların təsiri olmayacaq, bu belə deyil. Ən azından Rusiyanın timsalında görürük ki, bu cür tədbirlər kifayət qədər təsirlidir. Rəsmi Bakı siyasi məhbuslar məsələsində israrlıdır. Fikirləşirlər ki, hansısa addımı atmaq zəiflik göstəricisi olar, üstlərinə yeriyənlərin sayı çoxalar. Bu cür səhv yanaşmalar yanlış qərarların çıxmasına səbəb olur. Bu baxımdan vəziyyətin gərginləşəcəyini proqnozlaşdırmaq çətin deyil. Son dinləmələrdə konqresmenlər, senatorlar iştirak etmirdi. Amma unutmayaq ki, tədbir senatın binasında keçirilirdi. Hesab edirəm ki, bu məsələni son dərəcə diqqətlə nəzərdən keçirmək lazımdır. Siyasi məhbuslarla bağlı ciddi qərarlar verilməlidir. Bir şeyi unutmayaq ki, siyasi məhbusların 80%-nin həbsini MTN əməkdaşları həyata keçiriblər. Şərləmə əməliyyatını MTN-in Antiterror Mərkəzi həyata keçirib. Onların cinayətkar fəaliyyətlərinin bu istiqaməti də nəzərdən keçirilə bilər. Yenidən bu məsələlər dəyərləndirilə bilər. Münasibətlərdəki gərginliklər artan xətt üzrə gedəcək”.

**Ə.Oruclu dinləmələrin keçirilməsinə təşəbbüs göstərən şəxslərin ermənilərə xidmət etmələri ilə bağlı səslənən iddialara kəskin reaksiya verdi:** “Azərbaycanın xarici siyasətində olan uğursuzluqlarda erməni faktorunu axtarmaq yetər. Cəmiyyət bu cür fikirlərə inanmır. ABŞ adında dövlət başdan-ayağa ermənilərə işləyirsə, o zaman Azərbaycan adında dövlət çoxdan yer üzündən silinməli idi. Con Kerri ermənipərəst, bu senator erməniperəst, nə qədər bu cür fikirlər səsləndirmək olar? Nə baş verirsə, hamısında erməni izi axtarırlar. Ermənilər bu qədər qüdrətlidirsə, qarşılarında necə dayanmışıq? Belə səviyyəsiz bəyanatları şərh etmək çətindir. Onu ancaq özünə hörmət qoymayan şəxslər şərh edə bilərlər. Azərbaycandakı seçkiləri tanımamaq üçün artıq bu gün əsaslar var”.

Dinləmələrin əsas müzakirə mövzularına çevrilən Leyla Yunus və Xədicə İsmayılın vəkilləri də məsələyə münasibət bildirdilər.

**L.Yunusun vəkili Elçin Qəmbərov** xarici təşkilatların təzyiqlərinin hakimiyyət üçün ciddi əhəmiyyət daşıdığını söylədi: “Xaricdən gələn hər bir qərar Bakıda ciddi narahatçılığa səbəb olur. Dünya ictimaiyyəti göstərir ki, Azərbaycandakı proseslərə laqeyd deyil. Son bir ildə Qərbin təzyiqlərinin Azərbaycan üçün səmərəsiz olduğu açıq şəkildə görünür”.

Xədicə İsmayılın vəkili Fariz Namazlı Azərbaycan məhkəmələrinin hər iki qadın məhbusu azad edəcəklərinə inanmır: “Bu daha çox dövlət başçısının səlahiyyətində olan məsələdir. Xədicə İsmayılın məhkəməsi heç bir əsas gətirilmədən təxirə salındı. Əgər onu həbsdən azad etmək fikirləri olsaydı, dünən azad edərdilər. Amma prosesin bir ay uzadılması onu göstərdi ki, məhkəmələrin Xədicə İsmayılı azad etmək niyyətləri yoxdur. Bu baxımından danışıqların təsirinin olacağına inanmıram, Məhkəmələr bitəndən sonra prezident onlar barəsində əfv verə bilər”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015



# Məktəb seçki yeri deyil

Zamin HACI
zaminhaci@gmail.com

**Hər gün yeni bir şeylər öyrənirik. Lap o şairin dediyi vəziyyətdir: "Hər gün bir yeni nəğmə, Hər gün bir yeni dastan...".**

Örnək üçün, mən keçmiş MTN şefi Eldar Mahmudovun atasına Naxçıvanda heykəl qoyulmasını dünən öyrəndim. O da heykəl uçurulandan sonra. Qəribə heykəl taleyidir.

Sən demə, Eldar müəllim vaxtilə "Narxoz"da müəllim işləyən atasına heykəl qoydurubmuş, indi işdən çıxarılandan sonra Vasif Talıbov ekskavator göndərib, heykəli yıxdırıb. Yapistlər belə etibarsız adamlardır. (Sözgəlişi, Eldar müəllimin atasının "iqtisadçı-alim" olmasını da mən o, nazir qoyulandan sonra öyrəndim. Baxmayaraq İqtisadiyyat Universitetini babat qiymətlərlə bitirmişəm).

Bunun başqa və daha kəskin forması deputatxanada hansısa komitənin sədri olan Əli Hüseynlinin dilindən səslənib. Sitat: "Əlbəttə cinayətkarlığa qarşı mübarizədə güc strukturlarının, hüquq-mühafizə orqanlarının hər zaman rolu olmuşdur və bu cəmiyyət tərəfindən dəyərləndirilir. Amma, sabiq Milli Təhlükəsizlik naziri Eldar Mahmudov kimi riyakar şəxsin fəaliyyəti ilə ölkəmizdəki ictimai-siyasi sabitliyin və təhlükəsizliyin heç bir əlaqəsi olmayıb".

Təsəvvür edirsinizmi? Bu cəfəng, uydurma sözlər 10 il nazir işləmiş adam haqda deyilir. Necə yəni "heç bir əlaqəsi olmayıb"? Mənim də Eldar Mahmudovdan zəhləm gedir, amma bu qədər də olmaz axı. YAP-ı quranları partiyadan qovurlar, deyirlər bunlar YAP üzvü olmayıb. Naziri işdən çıxarırlar, deyirlər bu heç nazir deyildi. Barıtı bu qədər qoymaq düz deyil. Dövlət qıraqdan çox qeyri-ciddi bir şey kimi görünür. Sabah məlum olacaq ki, müstəqilliyimiz də belə bir zarafatdan ibarətdir.

İndi isə 1 noyabrda gözlənən deputat seçkisi haqda bir-iki kəlmə yazım, yoxsa oxucular elə bilər mən də seçkini unutmuşam. Prinsipcə, heç bir ciddi müxalif qüvvənin qatılmadığı, Avropanın, dünyanın ciddi qüvvələrinin də müşahidə etməyəcəyi bu deputatxana seçkisi Azərbaycan tarixinin ən sönük seçkisidir. Odu söndürüb külüylə oynamaq deyirlər, bax, bu seçki odur. Dovşanın suyunun suyu da deyə bilərik.

Eyni zamanda, bəzi yerlərdə yapistlərin təzədən "onbaşı, minbaşı" sistemiylə, karusellə saxta seçici aktivliyi düzəltmək cəhdləri gülməlidir. Kimə lazımdır? Onsuz müşahidə edən yoxdur, qutuya neçə bülleten istəsəniz basın getsin. Hansı oyuncaqdan deputat düzəldirsinizsə, düzəldin. Buna görə sizə gözün üstdə qaşın var deyən olmayacaq. Özünüz özünüzü aldatmaq, bir növ, "azad seçki onanizmi" ilə məşğulat eləmək istəyirsinizsə, başqa məsələ.

Mən fürsətdən yararlanaraq bir təklifimi təzə təhsil nazirimiz Mikayıl müəllimə yetirmək istəyirəm. Fikrimcə, təhsil islahatları üçün bu, çox önəmli məsələdir.

İki gün qabaq məktəb yolunda gedirəm, qabaqda iki müəllim(ə) danışır: "- Səndə neçə valideyn var? Mənimkilərin ikisi qaçqın çıxdı. - Hə, mən də 20 nəfəri güclə düzəltdim. Vəsiqələrini almışam, gəlməlidir hamısı". Sən demə, bunlar məktəbdəki seçki məntəqəsində saxtakarlıq edən müəllim(ə)lərdir. Direktor tapşırıb, YAP-ın namizədi üçün səs düzəldirlər.

Məktəb özü də bazara, yarmarkaya oxşayırdı. Pəncərələrə, divarlara MSK-nın plakatları o qədər çox yapışdırılmışdı ki, sanardın bura bəlkə sirkdir, səhv gəlmisən. Məncə bu praktikaya - məktəblərdən seçki məntəqəsi kimi yararlanmağa qəti şəkildə son qoyulmalıdır. Məktəb özünün ilkin və yeganə funksiyasına qaytarılmalıdır. Müəllimləri seçki komissiyasına üzv seçmək praktikası da bitməlidir. Kitab oxumaq, uşaqları öyrətmək yerinə, fırıldaqçılıqla məşğul olurlar.

Dərdi göstərən çarəsini də deməlidir və məncə şəhər yerlərində seçki məntəqəsi qayırmaq üçün dövlətin, bələdiyyənin yetərincə otaqları var. Misal üçün, hər məhəllədə xeyir-şər evləri tikilib. Niyə ora bir-iki həftəliyinə seçki məntəqəsi də olmasın? Kəndlərdə isə hətta çadır qurmaq olar. Təki məktəb seçki yuvası, cinayət ocağı olmasın.

**Ümidvaram Mikayıl müəllim bu təklifimə səs verəcəkdir. Əks halda həyatımın yerdə qalan hissəsini onunla mübarizəyə həsr edəcəyəm.**

# Tehran-Tiflis-İrəvan-Rusiya anlaşmasının sirri

## Ölkəmiz üçün növbəti təhlükəli plan işə salınıb; **ekspert:** "Azərbaycanın təklənməsi prosesi gedir, Qərb də bu situasiyada Azərbaycanı müdafiə etmək fikrində deyil"

**Gürcüstanın Rusiyanın "Qazprom" şirkətindən qaz almaq niyyəti ciddiləşdikcə İran və Ermənistanın da Azərbaycanın maraqlarına zərbə sayılan bu layihədə iştirakı məsələsi ortaya çıxıb. Ermənistan prezidentinin bu arada Tiflisə səfər etməsi də bu kontekstdə qiymətləndirilir. Paralel olaraq İran Gürcüstana Ermənistandan tranzit kimi istifadə etməklə qaz ixrac etmək istəyir. Faktiki olaraq Azərbaycanın maraqlarına uyğun gəlməyən proses gedir.**

Azərbaycan qazına alternativlər axtarışında olan Gürcüstanın energetika naziri Kaxa Kaladze növbəti dəfə məsələni gündəmə gətirib. ANS-in məlumatına görə, o, Azərbaycanın Gürcüstan əhalisini qazla təmin etdiyini, amma bəzi ticarət obyektlərinə "SOCAR"ın qaz vermək imkanı olmadığını söyləyib: ""SOCAR"ın əhalini təbii qazla təmin etməsində problem yoxdur və bu, tam həcmdə həyata keçirilir. Amma bu şirkətin ticarət obyektlərinə əlavə həcmdə qaz vermək imkanı yoxdur. Sırf buna görə "Qazprom"la danışıqlar aparılır".

**Energetika naziri, "Qazprom"un rəhbəri Aleksey Millerlə** İtaliyada baş tutan sonuncu görüşünün detalları barədə yenə də açıqlama verməyərək hələ razılığa gəlinmədiyini bildirib.

Nazir onu da əlavə edib ki, "Qazprom"la eyni zamanda Ermənistana ötürülən tranzit qazın həcminin artırılması barədə danışıqlar aparılır.

**Rusiyapərəst mövqeyi ilə seçilən keçmiş Baş nazir Bidzina İvanişvili isə "SOCAR"ın ölkədə monopolist şirkət olmaması üçün "Qazprom"dan mavi yanacaq almağın vacib olduğunu söyləyib:** "Bu gün Rusiya qazı ilə bütün Avropa təchiz edilir. Gürcüstanın da bu ölkədən qaz alması cinayət deyil. Azərbaycan qazının ucuzluğunu soruşursuz. Biznesmen ağılsız deyil ki, bir yerdən ucuz qiymətə aldığı qazı qoyub başqasına daha çox ödəməklə qaz əldə etsin. Azərbaycan tərəfinə minnətdarıq, amma ölkədə bir şirkətin monopolist olmaması üçün müxtəlif şirkətlərin cəlb edilməsi vacibdir". Hələlik SOCAR-ın bu iddiaya münasibəti bəlli deyil. Sadəcə bildirilir ki, şirkət Gürcüstan-Rusiya anlaşmasından narahatlıq keçirmir.

Düzdür, Azərbaycan da "Qazprom"dan qaz almağa hazırlaşır. Rusiyanın



"Qazprom" şirkəti ilə SOCAR arasında qaz nəqlinə dair svop müqaviləsinin texniki detalları hazırlanır. APA-nın məlumatına görə, bunu jurnalistlərə **SOCAR prezidenti Rövnəq Abdullayev** bildirib. R. Abdullayevin sözlərinə görə, hələlik müqavilənin nə vaxt imzalanacağı məlum deyil. Qeyd edək ki, "Qazprom"un Azərbaycana gündə 10 mln. kubmetr, illik 2 mlrd. kubmetr qaz nəql edəcəyi nəzərdə tutulur. Həmin qaz SOCAR-ın anbarlarına vurularaq saxlanılacaq. 2016-cı ildən isə həmin qaz Dağıstana nəql olunaraq Muxtar Respublikanı qazla təmin edəcək. Gürcü rəsmilər bəzən bu faktı önə çəkib Azərbacanı Tiflisin mövqeyinə anlayışla yanaşmağa çağırırlar. Fakt budur ki, məsələ iqtisadi olmaqla yanaşı, həm də siyasi motivlidir. Yəni qonşular Azərbaycanın regionda təsir imkanlarını azaldırlar. Noyabrın əvvəllərində isə İlham Əliyevin Tiflisə səfəri olacaq.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu** isə bildirdi ki, Azərbaycanın təklənməsi prosesi gedir: "Əslində də bu proses Rusiya tərəfindən aparılır. Gürcüstanın hazırkı hökuməti Saakaşvili hökumətindən fərqli olaraq daha çox vektorlu xarici siyasət kursu həyata keçirir, o cümlədən Rusiya ilə münasibətləri, ən azından iqtisadi münasibətləri yaxşılaşdırmağa çalışır. Digər tərəfdən Qərblə inteqrasiya istiqamətində xeyli addımlar atıb. Deyək ki, Avropa Birliyinin assosiativ sazişi imzalanıb. Digər tərəfdən, Gürcüstanda NATO-nun Təlim Mərkəzi açılıb. Yəni hərbi-siyasi inteqrasiya Avropa, Qərb istiqamətində gedir, amma eymi zamanda Rusiya ilə iqtisadi inteqrasiya həyata keçirilir".

**Ə.Orucluya görə, düşünmək olar ki, Azərbaycanın qaz layihəsinin uğursuzluğunun arxasında dayanan qüvvə Rusiyadır:** "Moskva Gürcüstana "Qazprom" vasitəsilə daha səmərəli təklif irəli sürüb. Həm də görünür ki, Azərbaycan tərəfin Gürcüstandakı enerji siyasəti həqiqətən də gürcü rəsmilərini qane etmir. Ola bilsin ki, bugünki Gürcüstan hakimiyyətinə yaxın olimur, bu da var. Çünki vaxtilə bütün bu biznes münasibətləri Saakaşviliyə yaxın dairələrlə qurulmuşdu. Xatirinizdədirsə, İvanişvili baş nazir olanda o, Azərbaycana səfər etdi. Onun ümumiyyətlə, bir xarici səfəri oldu, özü də Azərbaycana. Həmin səfər ərəfəsində o, Bakı-Axalkələk-Qars dəmir yolu ilə bağlı bir bəyanat verdi. O bəyanatın məzmununa varsaq, faktiki olaraq o, layihədəki yeyintidən öz payını istəyirdi. Bakıda da ona müəyyən sərt təpki verildi. Ola bilsin ki, bu, üzdə görünən idi, arxada hansısa bir anlaşma əldə olundu. Hər halda burada həm siyasi faktorun - Rusiyanın rolu var həm də iqtisadi amil rol oynayır". Ekspert hesab edir ki, iqtisadi amilin bu nəticəyə gətirib çıxarmasının iki səbəbi var: "Bir tərəfdən ölkənin qaz təchizi məsələsində Gürcüstan hökuməti Qazpromu daha məqbul partnyor bilir, həm siyasi, həm iqtisadi səbəbdən. Digər tərəfdən isə, görünür, Tiflisin Bakı ilə münasibətləri alınmır. Təsadüfi deyil ki, Bakıya dəvət olunan İrakli Qaribaşvili gəldi , buna baxmyaraq, yenə də Gürcüstanın əvvəlki xətti davam edir. Deməli, anlaşma əldə olunmadı". Ə.Oruclu Azərbaycan prezidentinin Tiflis səfərində də ciddi anlaşmanın əldə olunub-olunmayacağı barədə konkret fikir bildirməyin asan olmadığını vurğuladı: "Bilmirəm, Gürcüstana hansı şərtlə təklif edə bilərik ki, onun həm siyasi, həm iqtisadi kompaneti olsun. Bu baxımdan Qazprom Gürcüstana daha əlverişlidir ki, Rusiyanın Tiflisə təzyiqlərini müəyyən qədər azaltsın, Moskva Tiflisin Qərblə, NATO ilə inteqrasiyasına çox da qıcıqlanmasın. Digər tərəfdən isə bütün bu, Qərb-Rusiya qarşıdurmasında özünü qoruya bilsin".

**Politoloq Gürcüstan torpaqlarının işğalda olduğu halda, Tiflisin Rusiya ilə anlaşmasını təəccüblü saymadı:** "Azərbaycanın da torpaqları işğal altındadır, amma Azərbaycan rəsmiləri Rusiyaya yüksək münasibət göstərirlər. Məncə, burda məntiqdən kənar bir şey yoxdur. Gürcüstan xarici siyasətini diverfikasiya etmək istəyir, yeni hakimiyyət gələndən belə görünür. Burada Azərbaycanın təklənməsi prosesi gedir. Mən Gürcüstanın qaz məsələsinin arxasında duran faktor kimi Rusiya amilini göstərdim. Amma Qərb də bu situasiyada Azərbaycanı müdafiə etmək fikrində deyil. Bunun da da bir çox səbəbləri var. Əvvəla, deyilənlərə rəğmən artıq Azərbaycan qazı Avropa üçün bir o qədər aktual deyil. Digər tərəfdən, Azərbaycanın xarici siyasəti Rusiya istiqamətinə daha çox meyllənir. Bir də Azərbsaycan artıq bir partnyor, bölgənin dövləti kimi, Qərb üçün əhəmiyyətini itirib, ona maraq azalıb. Bütün bu amillər bizim əleyhimizə işləyir".

**Rusiyanın "Qazprom" şirkəti İrana satacağı qazı Azərbaycan kəməri ilə nəql edə bilər. "APA-Economics"in xəbərinə görə, bunu SOCAR prezidenti Rövnəq Abdullayev deyib. O, bildirib ki, Azərbaycan tərəfinə hələlik belə bir təklif edilməyib:** "Bizim kəmərdən istifadə edə bilərlər. Belə bir təklif olmayıb. Biz çalışırıq "Qazprom"la svop əməliyyatlar həyata keçirək".

❑ Cavid TURAN

# Nüfuzlu rusiyalı ekspertdən sensasion Qarabağ iddiası

"Avrasiya Birliyinə qoşulmağın qarşılığında Moskva Bakıya işğaldakı rayonları qaytarmağı təklif edəcək, amma..." **Ermənistanın sabiq baş naziri:** "Sərkisyan 4-5 rayonu verməyə hazırlaşır..."

**Bakı-Moskva münasibətləri son vaxtlar sanki "ikinci nəfəs" dövrünü yaşayır. Bunu öncəliklə Rusiya rəsmiləri və ictimai-siyasi xadimlərinin dilindən Azərbaycanın ünvanına səslənən xoşməramlı açıqlamalar və jestlərin çoxalmasından sezmək mümkündür.**

**Lakin əksər təhlilçilərə görə, ikitərəfli münasibətlərdəki səmimiliyin əsas lakmus kağızı Qarabağ məsələsinin həll perspektivi və Azərbaycanın "Putin birliyinə" qoşulması məsələsi olaraq qalır. Bəs əlaqələrin istiləşməsi bu iki istiqamətdə hansısa konkret nəticələrə gətirə bilərmi?**

***

"Rusiyanın müasir siyasəti saxlanacağı təqdirdə postsovet məkanındakı münaqişələrin heç biri həllini tapmayacaq". Bu sözləri minval.az saytına müsahibəsində tanınmış rusiyalı politoloq və ictimai xadim, Kremlin daxili və xarici siyasətinin sərt tənqidçilərindən sayılan Andrey Piontkovski bildirib.

"MDB: tarixin başlanğıcı və sonu" məşhur məruzəni yada salmaq yetər. Əslində 1998-ci ildə Konstantin Zatulin (ermənipərəst kimi tanınır - red.) və Andranik Miqranyan tərəfindən yazılan bu anonim sənəd illərdir Kremldə rəhbər tutulur. Üstəlik, açıq bildirilib ki, Rusiya qonşularının ərazisindəki konfliktlərin hamısında maraqlıdır və yeri gələndə onları süni şəkildə qızışdırır. Məsələn, Rusiya Qarabağ münaqişəsi hesabına həm Bakıya, həm də İrəvana nəzarət edir, bu yolla da hər iki tərəf Rusiyadan asılı duruma düşür. Öz növbəsində Moskva bu iki Cənubi Qafqaz respublikasının xarici siyasətini müəyyən eləmək və onların daxilindəki siyasi proseslərə təsir eləmək imkanı əldə edir" - deyib politoloq.

Onun sözlərinə görə, Rusiyaya bu konflikti yoluna qoymaq yox, onun tüstülənən vəziyyətdə saxlamaq sərf edir: "Münaqişə Moskva tərəfindən idarə edilir, təmas xəttində situasiya vaxtaşırı gərginləşir, geniş miqyaslı hərbi əməliyyatların başlanması həddinə çatır. Konfliktin hazırkı eskalasiyası fonunda isə Kreml Azərbaycandakı mövqelərini əhəmiyyətli şəkildə gücləndirib. Ermənistan haqda isə danışmağa belə dəymir. Bu ölkə özünü çoxdan geosiyasi küncə soxub və bütünlüklə Rusiyadan asılıdır. Bunun ən parlaq təzahürü kimi, Moskvanın İrəvana Avropa Birliyi ilə Assosiasiya sənədini imzalamağı yasaqlamasını göstərmək olar".

Ekspert daha sonra Rusiya-Azərbaycan münasibətlərinin istiləşməsi dövrünün Bakı-Vaşinqton münasibətlərinin kəskinləşməsi ilə üst-üstə düşdüyünə diqqət çəkərək deyib: "Görünür, Rusiya elə buna da can atırmış. Bu gün Moskva Bakı və İrəvanı idarə etməyin elə bir arzuolunan səviyyəsinə nail olub ki, artıq təmas xəttinə




Rusiya sülhməramlılarının yeridilməsi məsələsi qaldırılır. Bu, ümumiyyətlə, Moskva üçün konfliktin əbədilik dondurulmasına imkan verən ideal bir ssenaridir. Kreml Azərbaycan hakimiyyətinin elə bir zəif yerini tapıb ki, ondan həmişə yararlana bilər. Söhbət avtoritarizmdən gedir - hansını ki, AVB və Qərb ən azından ritorik səviyyədə məhkum edir. Bu isə Bakını qıcıqlandırır. Moskva isə Azərbaycana münasibətdə belə tənqidləri özünə rəva bilmir. Bu yanaşma da Qərbin təzyiqləri fonunda Bakı və Moskvanı yaxınlaşdırır. Kreml situasiyadan effektli istifadə edir və bundan sonra da edəcək".

***

Belə bir durumda Qarabağ ixtilafının həll mümkünlüyü ilə bağlı sualı cavablandıran analitik bildirib: "Konfliktin nizamlanması ətrafında durğunluq ondan xəbər verir ki, o, uzunmüddətli donma mərhələsinə daxil olmaqdadır. Bu da ola bilsin, erməni tərəfini qane edir, lakin Azərbaycan üçün qeyri-məqbuldur".

"Bəs Azərbaycan Avrasiya İqtisadi Birliyinə üzv olarsa, Kreml bunun qarşılığında Qarabağ münaqişəsini onun xeyrinə həll edə və Qərb o halda Azərbaycan uğrunda mübarizəyə girişə bilərmi" sualına ekspertin reaksiyası belə olub: "Əvvəla, Qərb nə Azərbaycan, nə Ermənistan, nə də başqa kiminsə uğrunda mübarizəyə girişəsi olmayacaq. Bunun əyani təzahürünü ABŞ-ın Suriya konfliktinə münasibətindən görmək olar. Azərbaycanın Avrasiya Birliyinə qoşulmasının plyuslarına gəlincə, qeyd eləmək olar ki, onlar - yoxdur. Çünki Avrasiya İttifaqı adlı siyasi konstruksiya iqtisadi məsələlərin həlli üçün yox, Moskvanın imperiya şöhrətpərəstliyi üçün yaradılıb... Ola bilsin, İttifaqa qoşulmağın mükafatı kimi Rusiya Azərbaycana Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsini və ora sülhməramlı qüvvələrin yeridilməsini təklif eləsin. Bununla da Kreml Dağlıq Qarabağın Ermənistana məxsusluğunun faktiki, qarantına çevrilmiş olacaq. Moskva bundan artığını Bakıya təklif edə bilməyəcək və istəməyəcək".

***

Bu arada Ermənistanın sabiq baş naziri Qrant Baqratyan mövzuya dəxli olan və kifayət qədər diqqəçəkici açıqlama verib. Müxalifətyönlü Lragir.am-ın yazdığına görə, Baqratyan bildirib ki, Ermənistanda gözlənilən konstitusiya islahatları məhz "4-5 rayonu Azərbaycana qaytarmaq üçün" düşünülüb.

Baqratyan faktiki, bəyan edib ki, Sərksiyan təkbaşına Qarabağı verə bilmədiyi üçün konstitusiyanı dəyişmək qərarı verilib ki, Qarabağ məsələsi referenduma çıxarılsın. "Hazırda regionda sülhün bərqərar olunması üçün hamı rayonların təhvil verilməsini tələb edir, ona görə də hamı konstitusiya islahatlarından razıdır" - əlavə edib eks-baş nazir.

"Bu - çox ciddi tezisdir, ələlxüsus da o zaman ki, heç kəs istisna elәmir ki, Qarabağ məsələsi həqiqətən yetişib və mürəkkəb qərarlar qəbul eləmək lazım gələcək. Belə bir qərar Domokl qılıncı kimi hər üç erməni prezidentinin başı üstündə asılıb. Levon Ter-Petrosyan ondan istefaya getməklə canını qurtardı, Robert Köçəryan Ki-Uestdə az qala onu qəbul edəcəkdi. İndi isə növbə Serj Sərksinındır. Sərkisyan da yəqin fərqindədir ki, məsələni çox uzatmaq mümkün deyil" - qeyd edib nəşrin şərhçisi.

***

**Bunun belə olub-olmayacağı böyük ehtimalla, Ermənistanda konstitusiya islahatları ilə bağlı dekabrda keçirilməsi nəzərdə tutulan referendum və onun nəticələrinə Kremlin reaksiyasından bilinəcək.**

❑ **Siyasət şöbəsi**

# Sükut günü



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Bu gün Azərbaycanda səsvermə öncəsi formal sükut günüdür. Ona görə "formal" ki, nə yatdıq ki, yuxu da görək? Əgər 1-2 telekanal və ya sayt ölkənin seçki dönəmində olduğu haqda, 1 noyabr 2015-ci ildə nə baş verdiyi barədə xəbər-zad yaymasa, sanarsan məmləkət elə 5-6 ay öncə hansı qayğılarla yaşayırdısa, indi də eyni qiyafədədir ki var.**

Doğrudan da həmin gün əksəriyyət üçün əvvəlkilərdən ciddi heç nə ilə fərqlənməyəcək, ona qədər kim hansı işlə məşğul idisə, yenə öz işinin-gücünün dalınca gedəcək: ailəsinə bir parça çörək qazanan yenə çörək avarası olacaq, hətta istirahət günü olanlar belə seçki məntəqələrinə getməyə ərinəcəklər. Tək səbəbə: ona görə ki, növbəti seçki onun həyatına, dolanışığına hansısa təsir gücündə deyil, olmayacaq. Ölkə insanı illərdir gördüyünə inansın, yoxsa qulaqları yağır eləmiş və reallaşmayan vədlərə?

***

Bu gün "bir millətin ikinci dövləti"ndə - Türkiyədə də sükut günüdür. Ancaq Türkiyə və Azərbaycanda seçkilər bir-birinə bənzəməz - sükut günləri də eləcə. Əvvəla, qardaş ölkə seçicisi bu gün siyasi partiyalardan hansına səs verib-verməyəcəyini sonuncu dəfə götür-qoy edəcək. Azərbaycanda isə ərz edildiyi kimi, klassik anlamda seçki olmadığından, seçicinin belə qayğısı yerli-dibli mövcud deyil.

İşdir-şayəd, kimsə sadəlövhcəsinə səsvermə məntəqəsinə getmək qərarına gəlsə, yenə dilemma ilə üzləşməyəcək, çünki onun yerinə çoxdan seçim edilib qurtarıb. Seçim eləsə belə, ya YAP-ı seçməlidir, ya da YAP-ı. Seçkilərdə siyasi qüvvələrin başqa vitrini, başqa təqdimatı yoxdur bizdə, ola da bilməz. Həmin siyasi qüvvələr arasında seçimi xalqın yerinə ona "əziyyət verməmək üçün" aylar öncədən kim edir - hamıya bəlli.

Azərbaycanda hətta "exit-poll"un nəticələri də sükut gününə xeyli qalmış bilinər. Qısası, Türkiyədə, digər normal dövlətlərdə seçki sükut günündən sonra tamamlanar, Azərbaycanda isə sükut günündən əvvəl. Fərq bu qədər böyük.

**Baxın, qardaş ölkədə bunca daxili-xarici terror təhdidi, mürəkkəb durum fonunda da demokratik seçkilərin təməl prinsipləri gözlənilir, çünki seçici rəyi hakim qüvvə daxil, bütün siyasi qüvvələr üçün mötəbərdir, ali gücdədir. Azərbaycanda isə...**

Azərbaycanda isə seçki anlamında təmiz nəsə varsa, o da yalnız yaraşıqlı, beynəlxalq standartlara uyğun seçki qutularıdır, vəssalam. Amma topluma, ölkəyə beynəlxalq standarta uyğun seçki qutuları yox, standartlara uyğun seçki lazımdır, bərabər rəqabəti seçki! Dövlətin, millətin həyatına gerçək mənada dinamika gətirəcək, sağlam inkişafa, sağlam rəqabətə stimul verəcək bir seçki! Bundan ötrü isə ölkədə ilk növbədə vətəndaşla yanağı, seçicinin varlığı təmin edilməlidir. Seçici olacaqsa, seçki də olacaq.

Beləcə, 23 ildir xalq dürüst seçkiləri tamarzıdır. Ölkədə faktiki surətdə birpartiyalı siyasi sistem bərqərar edilib və ilbəil, seçkidən-seçkiyə bu sistem möhkəmləndirilir. Qabaqcıl xalqların təcrübəsi isə deyir ki, həqiqi tərəqqi siyasi yeknəsəklikdə, təkpartiyalılıqda yox, rəqabətdə və çoxpartiyalılıqdadır, təridə-mədhiyyə, monoloq mühitində deyil, dialoq və tənqidi atmosferin bərqərar olunmasındadır.

Ən azından, böyrümüzdə Türkiyə nümunəsi, Türkiyə təcrübəsi var. "Müsəlman toplumlarda demokratiyanın oturuşması çətindir" deyənlər heç olmasa, qardaş ölkəyə baxıb nəticə çıxarsınlar, ibrət götürsünlər.

***

**Kimsədə quşqu yox ki, Azərbaycanda sabahkı parlament seçkiləri ölkə vətəndaşının azad və ədalətli seçkilərə inamını daha da sarsıdacaq. Buna şübhə yox. Ona da şübhə yox ki, belə mənasız, ölkə siyasi həyatı üçün öz önəmini çoxdan itirmiş seçkilər artdıqca nə vaxtsa keçiriləcək gerçək demokratik seçkilərə insanların inamını bərpa eləmək də bir o qədər çətin olacaq.**

**Bəlkə də heç mümkün olmayacaq.**

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015



# Son kadr dəyişikliyinin pərdəarxası

Azər RƏŞİDOĞLU

**Seçkilər iqtidar daxilindəki amansız savaşı dondura bilmədi. Hakimiyyət komandasındakı münaqişə hələ də öz həllini tapmayıb və ehtimal etmək olar ki, seçkidən dərhal sonra savaş baltaları daha amansız formada havada silkələnməyə başlayacaq.**

Bu gün seçkilərə müxalifətin iştirakı olmadan qatılan iqtidar öz daxilində atəşkəs elan etməyə cəhd belə etmədi.

Ehtimal etmək olar ki, kompromat savaşı daha da dərinləşməyə meyllidir və seçkidən sonra adıçəkilən müharibə daha amansız müstəviyə keçə bilər.

Ona da diqqət yetirmək lazım gəlir ki, seçkilərdən dərhal sonra ölkədə kadr dəyişiklikləri qaçılmazdır. Dövlət başçısının harınlamış məmurları ciddi ittiham etməsi, beynəlxalq təşkilatların hakimiyyət dəhlizlərini odioz simalardan təmizləməsini tələb etməsi bir çoxlarını narahat edir.

Heç kəs "günah keçisi" olmaq istəmir və odur ki, öz postunu qorumaq və rəqibini sıradan çıxartmaq üçün gözləmə mövqeyinə keçib. Xatırladaq ki, 2003, 2005 və digər illərdə də seçkilər ərəfəsində iqtidar daxili kompromat savaşı müşahidə edilirdi və seçkilər bitən kimi tərəflər daha amansız və qəddar müharibəyə başladılar. Ehtimal etmək olar ki, bu dəfə də belə olacaq. Əgər onu da nəzərə alsaq ki, artıq bir çox kadrların postlarını itirməsi qaçılmaz prosesə çevrilib, kompromat savaşının daha ağır olacağını ehtimal edə bilərik.

Araşdırmaçılar belə hesab edirlər ki, bu dəfə də "köhnə qvardiya"nın rəqibləri üçün daha böyük sınaqlar ola bilər.

Ötən məqalələrdə də vurğuladığımız kimi, "köhnə qvardiya" İlham Əliyev hakimiyyətə gələn andan etibarən, 2003-cü ildə, 2005-ci ildə, 2008-ci ildə, 2010-cu ildə keçirilən seçkilərdə hakimiyyətə qələbə qazandırıb.

Onu da unutmaq olmaz ki, 2009-cu ildə "köhnə qvardiya"nın təşəbbüsü ilə keçirilən eyni şəxsə üçüncü dəfə ölkə başçısı seçilmək hüququ verən referendum "ikinci hakim ailənin" iqtidara gəlişini əngəlləyə bildi.

Prinsip etibarilə, bu addım 2003-cü ildə "köhnə qvardiya"nın təkbaşına iqtidar hədəfinin "ikinci ailə" tərəfindən alınmasının cavabı idi.

Son parlament seçkilərində də "ikinci hakim ailə" bir xeyli deputat mandatına malik ola bildi. Eyni zamanda, bu komanda bir sıra nazirliklər üzərində təsir dairəsini qoruya bildi. Bu taktiki qələbə "yeniləri" 2013-cü il də hədəf seçməyə həvəsləndirdi. İqtidardakı əsas rəqibinə zərbə endirə bilməkdən ötrü "ikinci hakim ailə" "köhnə qvardiya"nın xarici əlaqələrinə zərbələr vurdu.

Müasir dünyada siyasi prosesləri həll edən başlıca amillərdən biri də maliyyədir və bu baxımdan mövcud iqtidara ən böyük müxalifət də bu düşərgənin özündədir. "İkinci hakim ailənin" müxalifət düşərgəsində, mətbuatda, "üçüncü sektorda" özünə dayaq tapması və İ.Əliyevi tənqid hədəfindən yayındıraraq, əsas nişangah kimi "köhnə qvardiya"nı atəş xəttinə çıxartması irəli gedən planlardan xəbər verir. Əgər "ikinci hakim ailə" bu templə irəliləyə bilsə, prezident qərarlarının qəbuluna da təsir imkanını genişləndirə bilərdi.

**Ehtimal etmək olar ki, seçkilərdən sonra "köhnə qvardiya" iqtidar strukturlarını tam nəzarətə keçirtməyə cəhd göstərəcək. Son illər ərzində Azərbaycanda iqtisadi bloku ələ keçirən, vergilər, gömrük, mədəniyyət və s. nazirliklərə tam nəzarət edən "ikinci ailə"nin təsir dairələrindən kənarda qalan yeganə qurum məhz PA idi. Veteranlar artıq iqtisadi müstəvini və təhlükəsizlik sistemini də dövlət başçısının xeyrinə dəyişməklə, öz maraqlarını onun maraqları ilə uzlaşdırırlar. Burada bir məqama diqqət yetirmək lazım gəlir. PA-ya nəzarət də ələ keçirilərsə, artıq "ikinci ailənin" birinci olacağı, ölkəyə tam nəzarət edəcəkləri birmənalıdır. Görünən odur ki, kadr dəyişiklikləri və rotasiyalar qaçılmazdır. Lakin burada qeyd etmək yerinə düşər ki, sistem dəyişməsə, ölkədə müsbət irəliləyişlər ola bilməz. Odur ki, ehtimal edə bilərik ki. sistemin dəyişdirilməsi də artıq qaçılmazdır...**



# Daha bir azərbaycanlı hökuməti Avropa Məhkəməsində uddu

## Aqil Xəlil: "Nələr çəkdiyimi bu pullarla "yuya" bilməzlər"; Avropa Məhkəməsi hamı üçün son ümid yeridirmi?..

**Jurnalist Aqil Xəlil Avropa Məhkəməsində onun işi üzrə qəbul etdiyi qərarı şərh edib. Jurnalist sosial şəbəkədəki statusunda öncə bu məsələdə onu dəstəkləyənlərə təşəkkür edib.**

Mühacir jurnalistin yazdığına görə, haqlarını pozan, həyatını alt-üst edən hakimiyyəti bağışlamayacaq: "Milyonlar ödəsələr belə, mənim o vaxtlar nələr çəkdiyimi bu pullarla "yuya" bilməzlər. O, Avropa Məhkəməsinin çıxardığı qərarla Azərbaycan hökumətinin ona ödəməli olduğu 28 min avro məbləğində cəriməni nəyə xərcləyəcəyinə də toxunub: "Pulun məlum olan hissəsini vəkillərə, qalan əsas hissəsinin bir qismini Azərbaycanda azad jurnalistikaya, xüsusilə "Azadlıq" qəzetinə, bir hissəsini həbsdə olan həmkarlarıma, xüsusilə Xədicə İsmayıl, Seymur Həzi və digərlərinin səhhəti və qida ləvazimatlarına olan ehtiyaca, eləcə də siyasi dustaqlara, başqa Leyla və Arif Yunus, Tofiq Yaqublu, Rəşadət Axundov ailəsinə və digərlərinə, qalan hissəsini isə vaxtilə mənə və həyatını riskə atan jurnalistlərə hərtərəfli dəstək olan, mərkəzi ofisi Parisdə yerləşən Sərhədsiz Reportyorlar Təşkilatına ayırmağa qərar aldım".

Hökuməti tənqid edən yazıları ilə tanınan Aqil Xəlil 2008-ci ilin fevralında Bakıdakı Zeytun bağlarında ağacların kəsilməsini lentə alarkən Milli Təhlükəsizlik Nazirliyinin yüksək rütbəli işçiləri tərəfindən hücuma məruz qalıb. Nəticədə jurnalist döyülüb, üz, əl, sinə, baş nahiyəsindən xəsarətlər alıb və barmağı sındırılıb. Bundan başqa o, dəfələrlə hədələnib və ölkədən çıxmasına qanunsuz əngəllər yaradılıb.

**Aqil Xəlilin hüquqlarını Media Hüququ İnstitutunun vəkilləri Rəşid Hacılı və Elçin Sadıqov müdafiə ediblər. "Azadlıq" qəzetinin keçmiş əməkdaşı Aqil Xəlil hazırda Fransada mühacirətdə yaşayır.**

***

**Bu xəbər bizə indiyədək yolu Avropa Məhkəməsindən keçən insanlar, xüsusən də Azərbaycan vətəndaşları ilə bağlı mövzunu aktuallaşdırır. Bu qurum nə işlə məşğuldur, hansı şikayətləri araşdırır, kimlər ora müraciət edə bilər?**

Öncə qeyd edək ki, vətəndaş Avropa Məhkəməsinə müraciət etməzdən əvvəl öz ölkəsində bütün məhkəmə instansiyalarından keçməlidir. Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarını pozan (bilavasitə sizinlə bağlı olan bir və ya daha çox pozuntu) Konvensiyanı imzalamış bir və ya bir neçə dövlətə qarşı işə baxa bilər. Şikayətçinin etirazına səbəb olan hərəkət(lər) həmin dövlətin və ya dövlətlərin rəsmi şəxsləri tərəfindən edilməlidir. Yəni məhkəmə ayrı-ayrı fərdlərə və ya özəl təsisatlara, məsələn, kommersiya şirkətlərinə qarşı qaldırılan işlərə baxa bilməz.

Vətəndaşın şikayət ərizəsi Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş hüquqlardan biri ilə əlaqədar olmalıdır. Haqqında şikayət ərizəsi daxil olan pozuntular özündə geniş məsələləri ehtiva edə bilər. Məsələn, həbs olunan insanlara qarşı işgəncələrin tətbiq edilməsi və onlara qarşı qeyri-insani rəftar, qeyri-qanuni həbs, mülki və cinayət məhkəmə proseslərindəki nöqsanlar, qanunların tətbiqi zamanı ayrı-seçkiliyə yol verilməsi, valideynlərin uşaqlar üzərində hüquqları, mənzil və məktublaşma hüququna hörmətlə yanaşılması, fikirlərin sərbəst şəkildə ifadə edilməsi və informasiyanın əldə edilməsi, yaxud ötürülməsi zamanı məhdudiyyətlərin qeydə alınması, nümayişlərdə sərbəst iştirak etmək hüququ, ölkədən zorla çıxarılma və ekstradisiya, mülkün müsadirəsi və şəxsin əlindən zorla alınması.

**Vətəndaşın işinə heç bir ödəmə olmadan baxılır. Şikayətçi ancaq öz şəxsi xərclərini ödəməlidir (hüquqşünasın xidmət haqqı, tədqiqat və buna bənzər xərclər kimi). Bundan başqa, şikayət ərizəsi məhkəmə tərəfindən qəbul ediləndən sonra vətəndaş hüquqi yardım üçün müraciət edə bilər.** Hüquqi yardım dərhal verilmir, onunla ancaq məhkəmə araşdırmasının sonrakı mərhələsində təmin olunmaq mümkündür.

Araşdırma yazılı şəkildə aparılır. Buna görə də məhkəmədə adətən dinləmələr olmur və məhkəmə tərəfindən verilən hər hansı qərar haqqında şikayətçiyə yazılı şəkildə məlumat verilir.

**Lakin bu instansiyaya müraciət heç də problemlərin dərhal həlli demək deyil. Hazırda məhkəməyə edilən müraciətlərin sayını nəzərə alaraq demək olar ki, məhkəmənin hər hansı müraciətlə bağlı ilkin araşdırmanı aparması üçün azı bir il lazımdır. Yox, əgər ərizəçinin fiziki işgəncəyə məruz qalması ehtimalı haqqında məlumat varsa, bəzi ərizələrə üstünlük veriləcək onlara təcili baxıla bilər. Yəni Avropa Məhkəməsi heç də hamı üçün son ümid yeri deyil. Çünki məhkəmənin milli qərarlarla bağlı yenidən qərar verməklə və ya milli qanunları ləğv etmək kimi səlahiyyətləri yoxdur.**

❑ Sevinc TELMANQIZI

# Nazirin töhməti məddahlığın kökünü kəsə bilərmi...

**"525-ci qəzet"in 17 oktyabr 2015-ci il tarixli sayında Mədəniyyət və Turizm Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri şair Vaqif Quliyevin (Bəhmənli) şeirləri dərc edilib. Həmin şeirlərdən biri - "Hamiya yaxşılıq" mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə həsr olunub. Şeir qəzetdə dərc edildikdən sonra müxtəlif saytlarda və sosial şəbəkələrdə geniş müzakirə edilib və ictimaiyyət tərəfindən müxtəlif səpkili münasibət bildirilib.**

Bu hadisə Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi tərəfindən pislənilib, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidlə əlaqə yaradılaraq bu üslubda şeirin qəzetdə dərc olunmasına dair irad bildirilib.

Mədəniyyət və turizm nazirinin 28 oktyabr 2015-ci il tarixli əmri ilə Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Vaqif Quliyevə töhmət elan olunub.

Artıq tərəflər olayla bağlı öz mövqeyini açıqlayıb. Amma məsələdə diqqəti çəkən başqa bir məqam var. İctimaiyyətdə belə rəy var ki, sözügedən olayın bu cür yekunlaşması əslində müsbət haldır. Belə ki, bununla yaltaqlara "qırmızı işıq" yandırıldı, cəmiyyətdəki bu kimi halların arası kəsilə bilər. Təbii, bunu optimistlik kimi də qiymətləndirmək olar. Amma bütün hallarda töhmət ciddi addımdır və heç də az ciddiyə alınası hal sayılmaz.

"Bu şeir olayında bəzi ciddi, müdrik hesab elədiyim adamların da kütləyə qoşulub küyə getmələrinə təəccübləndim. Kütləvi psixoz zamanı şairi sözünə görə linç edənlərə qarşı kim durmalıdı?". Bunu öz "Facebook" profilində "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid yazıb.

**R.Məcid qeyd edib:** "Kim bu əlinə qılınc götürüb şairin qanına susayanlara dayan deməlidi ?! Agıllı,təmkinli insanlar və ciddi media! Əgər bunlar da axına qoşulub soyuqqanlı münasibət sərgiləyə bilmirlərsə bu cox acınacaqlıdı!".

**Onun sözlərinə görə, şair taleyində rolu olan adama bu cür minnətdarlıq bildirib:** "Ola bilsin bir az indiki statusda bu yersiz çıxıb. Amma şair səmimi olub, vəfa, etibar, sədaqət və minnətdarlıq duyğusunu bu cür catdırmağı məqbul sayıb. Heyif ki, indi cəmiyyətimizdə - xüsusən saytlarda və sosial şəbəkələrdə çoxlu nankorlar, çörəyi dizinin üstündə olanlar, vəfasızlar, etibarsızlar və nadanlar meydan sulayır. Əksinə olan insanlar isə çox vaxt susurlar! Pis budu!"



**Rəşad Məcid:**
"Şair taleyində rolu olan adama bu cür minnətdarlıq bildirib"



**Qan Tural:**
"Yaltaqlıq o zaman yığışdırılar ki, heç bir orqanizm yaltaqlıq tələb etməsin"

**Kulis.az dərgisinin baş redaktoru Qan Tural** isə bir bir töhmətlə məddahlığın kökünün kəsiləcəyinə inanmadığını dedi: "Çünki töhmət bir dəfə olubsa ənam minlərlə dəfə olub. Həm də görünür buna tələbat var. Yəni bəzi insanların içində güclü məddahlıq olduğu kimi digərlərində isə məddahlığa ehtiyac hiss edirlər. İstəyirlər ki, onları tərifləyələr. Bu anormaldı, amma gerçəkdir. Yaltaqlıq o zaman yığışdırılar ki, heç bir orqanizm yaltaqlıq tələb etməsin".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015

**Prezident Administrasiyasının rəhbər, akademik Ramiz Mehdiyevin müxtəlif zamanlarda mətbuatda iri həcmli silsilə məqalələri çap olunur. Həmin məqalələrdə əsasən siyasi və ictimai hadisələrə toxunulur. Bəs bu məqalələri ölkə ictimaiyyəti necə qiymətləndirir?**

# İctimai-siyasi şəxslərdən Ramiz Mehdiyevin məqaləsinə reaksiya

## PA rəhbərinin qeydləri ən azı, mükalimə və müzakirə mühiti üçün maraqlı hesab edilir...

**ADP sədri Sərdar Cəlaloğlu** bu məqalələrin hər birini oxuduğunu dedi: "Alqışlayıram ki, Azərbaycan iqtidarında bir neçə nəfər var ki, onlar klassik siyasi işi təşkil etməyin nə olduğunu başa düşürlər. Buna görə də yalnız idarəetməni deyil, həmçinin, bunun elmi, fəlsəfi əsasları ilə bağlı müəyyən ideoloji təbliğat aparırlar. Bu siyasətin bir qədər yüksək keyfiyyətindən xəbər verir. Eyni zamanda prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov da kitablar yazır. Baxın, Azərbaycan iqtidarında bu iki şəxsdən başqa heç bir nazirin, komitə sədrinin və digərlərinin aparılan siyasətlə bağlı heç bir nəzəri əsası yoxdur. Bu baxımdan mən Ramiz Mehdiyevin məqalələr yazmasını müsbət qarşılayıram. Hər zaman hakimiyyətin beyninin necə işlədiyini bilmək üçün bu məqalələri oxuyuram. Çünki Azərbaycan iqtidarının idarəetmə texnologiyası, bütün davranışları və gələcək hərəkətləri bu məqalələrdən bilinir. Həmin məqalələrlə bağlı fikrimi hətta kitab şəklində də yazıram. Məsələn, Ramiz Mehdiyevin vaxtı ilə iqtidarın strategiyası ilə bağlı məqaləsi çap olunmuşdu. Həmin məqaləyə cavab olaraq, 500 səhifədən ibarət kitab yazdım. Faktiki olaraq o kitab Ramiz Mehdiyevin məqaləsində irəli sürülən müddəaların elmi-fəlsəfi və dünya siyasi təcrübəsi əsasında təhlilindən ibarətdir. Ramiz Mehdiyevin bəzi məqalələrindəki fikirləri ilə mənim düşüncələrim qətiyyən üst-üstə düşmür. Ancaq olub ki, tarixə baxış baxımından fikirlərimiz eyni olub. Nəticə olaraq qeyd edim ki, iqtidar bu məqalələri yazmaqda tamamilə düzgün edir. Onlar öz beyinlərinin necə işlədiyini, bu fikirlərin necə yarandığını bildirirlər. Biz də müxalifət kimi həmin düşüncənin doğru və ya yanlış tərəflərini araşdırıb öz mövqelərimizi ortaya qoyuruq".

**Deputati Zahid Oruc** məqalələri yüksək qiymətləndirdiyini söylədi: "Ramiz Mehdiyev Azərbaycan müstəqillik qazandıqdan sonrakı illərdə ulu öndər Heydər Əliyevin ən yaxın siyasi silahdaşı olaraq, dövlət quruculuğunun bütün ağır mərhələlərindən keçərkən dövləti əhəmiyyətli işlərin hamısında iştirak edib. Paralel şəkildə beynəlxalq aləmdə baş verən hadisələri məhz qeyd etdiyimiz amilə görə yaxından müşahidələr etmək, ulu öndərin məktəbini uğurla keçməsi imkanları olub. Məhz buna görə də Ramiz Mehdiyevin baxışları, irəli sürdüyü versiyalar cəmiyyətdə böyük rezonans doğurur. Onun istənilən məsələyə yanaşması öz orijinallığı ilə seçilib. Eyni zamanda Azərbaycanın daxili həyatı ilə bağlı mühim məsələlər, daşıdığı yüksək vəzifə məqamına görə, malik olduğu informasiya kütləsi hər zaman imkan verib ki, xalqımızın milli maraqları kontekstində öz mövqeyini uğurla ifadə etsin. Düşünürəm ki, Ramiz Mehdiyevin baxışları sistemliliyi ilə hər zaman seçilib. Onun son məqalələri də qeyd etdiyimiz məsələlərə bir başa cavab verir. Bu cür tutumlu yanaşmalar Azərbaycan üçün çox əhəmiyyətlidir".


Sərdar Cəlaloğlu


Zahid Oruc


Razi Nurullayev

**Yeni AXCP sədri Razi Nurullayev** isə mövzu ilə bağlı aşağıdakı fikirləri söylədi: "Mən siyasətçilərin və dövlət yetgililərinin yazı yazmasını, fikirlərini yazılı şəkildə insanlara çatdırmasını müsbət qarşılayıram. Ramiz Mehdiyevin də silsilə yazılar yazması müsbət haldır. Ən azından bu yazılar siyasi camiədə diskussiyalar yaradır, debatlara yol açır və təbii ki, jurnalistlərə maraqlı mövzular verir. Amma təbii ki, yazılanlarla razılaşıb-razılaşmamaq başqa məsələdir. Məsələn, Ramiz müəllimin yazılarını oxuyan zaman məndə kifayət qədər suallar yaranır və orada bəzi fikirlərə mənim yanaşmam tam əks olunur. Əlavə olaraq, Ramiz müəllimin yazıları uzun olur və onu oxumaq və analiz etmək üçün də vaxt tələb olunur".

**Böyük Qurtuluş Partiyasının sədri Fazil Mustafa** isə bildirib ki, bu məqalələrin hər birini diqqətlə oxuyur:

"Bunu yüksək qiymətləndirirəm ki, akademik Ramiz Mehdiyev vaxtaşırı olaraq cəmiyyət həyatını təhlil edən, Azərbaycanın beynəlxalq siyasəti ilə bağlı məqalələrlə çıxış edir. Bu çox yaxşı bir haldır. Eyni zamanda məqalələr cəmiyyətdə elmi, intellektual müzakirə mühitinin yaranması üçün şərait yaradır. Hətta müxalif fikirli siyasətçilər belə razılaşdıqları və ya razılaşmadıqları məqamlar barəsində yazılar yazırlar ki, bu da müsbət bir haldır. Mövqe kimisə qane etməyə də bilər. Ancaq bu, müzakirə mühiti üçün əlavə stimul verir. Bu stimulu da məncə, cəmiyyətin gələcəyi, daha doğru istiqamətlərin tapılması ilə bağlı fikir plüralizminin yaranmasına köməklik göstərir. Ramiz Mehdiyevin yazılarını diqqətlə oxuyuram. Müəyyən məsələlərə öz yanaşmamı da qeyd edirəm. Bizim cəmiyyəti buna alışdırmaq olduqca vacibdir. Dedi-qodudan, bir-birilərinin fikirlərinə kobud müdaxilədən daha yaxşı yol budur. Fikirlərini hansısa forma ilə yaz, kimsə opponentlik etmək istəyirsə, etsin. Bu da siyasi mədəniyyətin inkişafına, onun yaxşı mənada formalaşmasına köməklik edir".

❑ Əli RAİS

# Hakimiyyət müşahidəçilərin sayı ilə bağlı yenidən ATƏT-ə müraciət edib

## Müsavat başqanı və tanınmış politoloq Avropa Şurasının müşahidə qrupu ilə görüşdən imtina etdi



**Sabah Azərbaycanda Milli Məclisə seçkilər keçiriləcək. 125 dairə üzrə keçiriləcək seçkilərdə 600-dən yuxarı namizəd mübarizə aparacaq. MSK-dan bildirilib ki, seçkilərdə 15 siyasi partiya və 7 partiyanın üzv olduğu bir blok iştirak edir.**

Seçkiləri ATƏT, Avropa Birliyi kimi dünyada nüfuzlu beynəlxalq təşkilatlar müşahidə etməyəcək. Buna baxmayaraq MSK və hakimiyyət bir sıra digər beynəlxalq təşkilatların, dövlətlərin müşahidəçilərini ölkəyə dəvət etməklə seçkinin beynəlxalq müşahidə altında keçdiyini ortaya qoymağa çalışır. MSK sədri Məzahir Pənahov bildirib ki, 501 beynəlxalq müşahidəçi MSK-da qeydiyyatdan keçib. Bunlar 40 təşkilatı, 27 ölkəni təmsil edir. Bunlara Avropa Şurası Parlament Assambleyası (AŞPA), Müstəqil Dövlətlər Birliyi (MDB), Türkdilli Ölkələrin Parlament Assambleyası (TürkPA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası (QİƏT PA), Avstraliya, İtaliya, Bolqarıstan, Litva, Latviya parlamentləri, Böyük Britaniya Lordlar palatası, müxtəlif ölkələrin Mərkəzi Seçki Komissiyalarının nümayəndə heyətlərinin rəhbərləri, Avropa Seçki Müşahidə Akademiyası, GÜAM, Amerika siyasi monitorinq mərkəzi və digər mötəbər qurumlardan olan nümayəndə heyətləri daxildirlər.

Ümumilikdə isə seçkilərdə müşahidə aparmaq üçün 66 min müşahidəçi qeydiyyatdan keçib.

Azərbaycanın ATƏT yanında Daimi Nümayəndəliyi isə dünən daha bir bəyanat yayıb. Bəyanatda Daimi Nümayəndəlik ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun direktorunun Azərbaycanda keçiriləcək seçkiləri izləməmək barədə qərarını qeyri-konstruktiv və qəbuledilməz qərar adlandırıb. Bəyanatda bildirilir ki, DTİHB tərəfindən göstərilən bu yanaşmaya baxmayaraq, Azərbaycan nümayəndə heyəti seçkilərə qədər bu məsələnin həllini tapacağına dair ümidini ifadə edib: "Ötən həftə DTİHB ilə yenidən məsləhətləşmələr aparıb, məhdud sayda ekspert göndərilməsi ilə bağlı təklif vermişik. Təəssüf ki, DTİHB Azərbaycan tərəfinin xahişini yenidən rədd etdi. Bizim DTİHB-lə münasibətlərimiz həmişə konstruktiv olub. Direktor Linkin müşahidə missiyası göndərməmək qərarı verməsindən sonra biz Daimi Şuranı proses barədə məlumatlandırmışıq və büronu məsləhətləşmələr aparmağa dəvət etmişik".

Bəyanatda o da vurğulanır ki, DTİHB öz öhdəliklərini icra etmədiyi halda, Azərbaycanın ATƏT-dəki Daimi Nümayəndəliyi DTİHB-nin aktuallığını yenidən nəzərdən keçirəcək".

**Dünən isə seçkiləri müşahidə edəcək AŞPA müşahidə missiyasının Azərbaycana səfəri başlayıb.**

Müşahidə missiyasına ispaniyalı parlamentar Jordi Çukla başçılıq edir. Səfər zamanı 30 nəfərdən ibarət komanda Milli Məclisdə təmsil olunan partiyalar, parlament qruplarının rəhbər və nümayəndələri, həmçinin parlamentdən kənar müxalifət partiyaları və hərəkat üzvləri, həmçinin, media və vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşlərə başlayıblar. Seçki günü nümayəndə heyətinin üzvləri ölkənin müxtəlif regionlarında səsvermənin gedişini izləyəcək. Seçkidən sonra nümayəndə heyəti mətbuat konfransı keçirəcək.

Dünən Müsavat Partiyasının başqanı Arif Hacılı Avropa Şurası Müşahidə Missiyası ilə görüşdən imtina edib. Bu barədə A.Hacılı məlumat verib: "30 oktyabr tarixdə saat 14-də Holyday İNN otelində Avropa Şurasının müşahidə missiyasının bütün heyəti ilə tək görüşməyimi istəmişdilər.

Görüşdən imtina etdim. Çünki bu müşahidə qrupuna etimadım yoxdur. Ötən səfərlərindən sonra Azərbaycanda seçki ərəfəsi siyasi şərait barədə həqiqəti əks etdirməyən hesabat yaymışdılar.

Bu qrup Azərbaycan hakimiyyətindən Beynəlxalq Birlik qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməyi qətiyyətlə tələb etmək, siyasi məhbuslarımızın azadlığa buraxılması üçün təsirli tədbirlər görmək əvəzinə iqtidarın bu vəziyyətdə də sudan quru çıxması üçün yollar axtarmaqla məşğuldur".

**Tanınmış politoloq Ərəstun Oruclu** da bildirib ki, Avropa təşkilat və ölkələrindən seçkiləri müşahidə etməyə gələn missiyalar ilə təklif olunan 3 görüşdən imtina eləyib: "Qərarım qətidir, bütün bu riyakarlıqları artıq nə dinləmək fikrim var, nə də onlarda iştirakçı olmaq. Bundan sonra bir neçə Avropa ölkələri səfirliklərinə münasibətdə də eyni mövqe sərgiləyəcəyəm, çünki mənim ölkəmdə öz şirkətlərinin maraqlarını təmin etmək üçün min bir dona girib, sonra da qarşında əyləşib insan haqları, demokratiya mövzusunda diplomatlıq edənlər həqiqətən ürəkbulandırıcıdır.

Bu qənaətə gəlməyimin başlıca səbəblərindən biri də bəzi avropalı diplomatların Bakıdakı fəaliyyəti haqqında apardığımız araşdırmalardır".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015

**"Bu gün Milli Təhlükəsizlik Nazirliyində baş verən olayları hətta təmizləmə kimi qəbul eləsək belə bu, bütövlükdə hökumətin təmizlənməsi kimi görünmür. Bu addımların heç birini islahat saymaq olmaz". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında Azərbaycan xüsusi xidmət orqanlarının keçmiş əməkdaşı İlham İsmayıl deyib.**

# Hakimiyyət öz içindəki "pisləri" təmizləyə biləcəkmi?

## İlham İsmayıl: "Baş verən son olayları islahat kimi qələmə vermək doğru deyil"

**Son iki həftədə Azərbaycan Milli Təhlükəsizlik Nazirliyindən başlayan və daha sonra Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə sıçrayan olaylar, yüksək vəzifəli şəxslərin işdən çıxarılması, onların bəziləri haqqında cinayət işinin başlaması, eləcə də yoxlamaların dayandırılması, gömrükdə bəzi sadələşdirmələr cəmiyyətdə çoxdan gözlənilən dəyişikliklərin olacağına ümid yaradıb. Ölkənin ən müxtəlif təbəqələrində gedən müzakirələrdə bildirilir ki, YAP iqtidarı ən azı özünü qorumaq üçün ölkəni talan obyektinə çevirən bir neçə qaynağı tamamilə sıradan çıxaracaq.**

Əslində proseslər nə mediaya, nə də vətəndaşa tam mənası ilə aydın deyil. Milli təhlükəsizlik nazirinin və nazirliyin yüksək rütbəli məmurlarının hansı səbəbdən işdən çıxarılması haqqında geniş informasiya yoxdur. Bütün bu informasiya kasadlığı versiya bolluğu yaratsa da, vətəndaşlar baş verənləri bütün hallarda dəyişiklik kimi qəbul edir, prosesi belə görmək istəyir. Sözsüz ki, vətəndaşların gözləntilərinin nə qədər doğrulacağı prosesin davamından asılı olacaq. Ancaq hələlik xüsusən gömrük, vergi sistemlərində yeniliklərlə bağlı prezident səviyyəsində addımlar və bəyanatlar yaxşılığa doğru hərəkətlilik olacağı ümidlərini artırıb.

**İlham İsmayıl isə ölkədəki ümumi fikrə hakim optimizmi bölüşmür:** "Bunlar qərarlar yox, sadəcə bəyanatlardır. Bütün bunların praktikada təsdiqi hələlik real görünmür. Bir tərəfdən baxdıqda bu gün MTN-də real işlər gedir - konkret şəxslərin elədikləri hansısa gizli əməlləri, cinayətləri üzə çıxır, bəziləri yararsızlıqlarına görə işdən azad olunurlar. Azərbaycan vətəndaşı illərdir ölkədə kök salan korrupsiya və rüşvətdən əziyyət çəkir. Korrupsiyanın və rüşvətin başında dayanan isə vergi, audit sistemi olub. Ölkə vətəndaşları daha çox vergi və gömrük sistemi ilə təmasda olur deyə ən böyük rüşvətin də bu sahələrdə olduğunu düşünür. Ancaq bu doğru yanaşma deyil. Azərbaycanda elə bir nazirlik, struktur yoxdur ki, rüşvət ora ayaq açmamış olsun. Ona görə də əgər ölkədə təmizlənmə aparılması ilə bağlı qərar varsa, bu, kənd təsərrüfatı nazirliyindən güc strukturlarına qədər olmalıdır. Bu gün dövlətin yuxarı təbəqələri ilə milli təhlükəsizlik naziri arasında problem yaranıb və bu problemə görə də onun dəstəsi nazirlikdən təmizlənir. Ona görə də hələlik ölkədə hakimiyyətin təmizlənməsindən, islahatların aparılmasından söz açmaq mümkün deyil. Mən bunu qlobal plan olaraq görmürəm".

**İlham İsmayılın fikrincə, Azərbaycanın idarəetmə sistemindəki problemlər o qədər çoxtərəflidir ki, qısamüddətli və ya bir neçə strukturda dəyişikliklər etməklə ölkəni nizama salmaq mümkün olmaz:** "İllərdir deyilir ki, Azərbaycanda geniş islahat planı aparmaq vacibdir. Söhbət həm kadr islahatından, həm struktur islahatından, həm də ümumilikdə siyasətin dəyişməsindən gedir. Hansısa generalın tutulmasını necə islahat saymaq olar? Bunlar bir cinayətin üzə çıxarılması və bu şəbəkənin yox edilməsidir.



**"İşdən çıxarılan məmurlar konkret adamları, hansısa prosesləri maliyyələşdirə bilərlər. Onların əzilməsi hakimiyyətə qarşı nifrətlərini artırır və..."**

Azərbaycanda islahatlar aparılması vətəndaşların əziyyət çəkdiyi korrupsiya qaynaqlarının bağlanmasında, ölkə vətəndaşlarına siyasi, iqtisadi azadlıq verilməsindən başlamalıdır".

**Prosesi birbaşa idarə edən dövlət başçısı İlham Əliyevin özünün sabit komandasına qarşı qəti addımları davam edəcək kimi görünür. Yayılan son xəbərlərə görə, yaxın günlərdə Vergilər Nazirliyində də yumşaq desək, kadr dəyişiklikləri gözlənilir. Bəs, İlham Əliyev komandasını tam təmizləyə biləcəkmi? İşdən çıxarılan yüksək vəzifəli məmurlar keçmiş komandaları üçün başağrısına çevriləcəkmi? Bu sualları cavablandıran İlham İsmayıl deyir ki, son günlər atılan addımlardakı ehtiyatlılıq məhz bu səbəbdəndir:** "Əldə yetərincə kapitalın cəmləşdiyi bir mühitdə təkcə vəzifədən uzaqlaşdırılmalar deyil, yerdəyişmələr belə gərginlik yaradır. Əlində ciddi resurslar olan insanlar əziləndə təbii, onlarda hakimiyyətə qarşı sevgi yox, nifrət, etiraz yaranacaq. Bu şəxsləri aktiv etirazçı saymaq doğru deyil. Ancaq onlar əl altından nələrsə edə bilərlər. Nəzərə almaq lazımdır ki, onların böyük kapitalı var. Onlar konkret adamları, hansısa prosesləri maliyyələşdirə bilərlər. Bu ehtiyatlılıq məhz həmin o kapitalın mövcud hakimiyyətə qarşı yönəlməsindən çəkindiricilik kimi dəyərləndirilməlidir. Ölkədə pul azalır, əhalinin durumu gündən-günə çətinləşir. Vətəndaşlar arasında narazılıq yüksəlməkdədir. Əgər buna qədər 2-3 fəhlə çıxıb maaşını tələb edirdisə, bu tendensiyalar çoxala bilər. Ehtiyatlılıq məhz bundandır. Hansısa generalın ailəsinin, yaxınlarının, çevrəsinin etirazını yatırtmaq hakimiyyət üçün o qədər də çətin deyil".

**İlham İsmayıl bildirir ki, hələlik YAP komandası içərisində gedən proses vətəndaşın həyatında heç bir formada görünmür. İnsanlar sadəcə kimlərinsə vəzifədən getməsi, kimlərinsə həbs edilməsi haqqında qısa xəbərlər alırlar. Yaşananları islahat, ölkədə qanuni düzən yaratmaq üçün komanda təmizləməsi adlandırmaq üçün vətəndaş ən qısa zamanda həyatında yaxşılaşmaya doğru dəyişiklik hiss etməlidir.**

❑ **Aygün MURADXANLI**

# "Putinin Azərbaycanda MTN rəhbəri postuna təyinat üçün təzyiqləri olacaq"

## Sülhəddin Əkbər: "Eldar Mahmudovun nəinki özünün, qudası Cahangir Hacıyevin də azadlıqda qalması..."

**Milli Təhlükəsizlik Nazirliyində baş verən proseslərdən 14 gün ötməsinə baxmayaraq, hələ də nazirlik postu boşdur. Eldar Mahmudovun vəzifəsindən azad olunmasından sonra yerinə təyinatın olmaması bir sıra suallar yaradır. Günlər keçdikcə sualların sayı artmaqda davam edir.**

Hazırda MTN daha çox həyata keçirilən yüksək rütbəli əməkdaşlarının həbsi ilə gündəmə gəlir. Hər keçən gün həbs dalğasının sıraları genişlənir. Bəzən həbs xəbərləri o həddə çatır ki, nazir postunun boş olduğu belə unudulur.

Heç şübhəsiz ki, bu vəzifəyə sıradan bir şəxs gətirilməyəcək. Uzun illər hakimiyyətə xidmət etmiş, iqtidarın etimadını qazanmış bir şəxsin MTN rəhbəri olacağı istisna edilmir. Ekspertlər hesab edirlər ki, iqtidar yeni nazir təyin etmək üçün 1 noyabr seçkilərini gözləyir. Seçkilərdən dərhal sonra MTN rəhbərinin kimliyinə aydın gələcəyi yayılan xəbərlər sırasındadır.

Onu da qeyd edək ki, E.Mahmudovun yerinin boş qalması günü-gündən MTN rəhbəri iddiasında olan şəxslərin sıralarını genişləndirir. Məhərrəm Əliyev, Əli Nağıyev, Vilayət Eyvazovun ardından ədliyyə naziri Fikrət Məmmədovun da milli təhlükəsizlik naziri olacağı barədə xəbərlər yayılıb. Ədliyyə rəhbərinin şansları adlarını qeyd etdiyimiz şansları az görünmür. Hakimiyyətin kadr itirməkdən daha çox vəzifələrdə yerdəyişmələr etmə siyasətini aparması F.Məmmədovun yeni MTN rəhbəri olacağı ehtimallarını sürətləndirir.

Məsələ ilə bağlı Ədliyyə Nazirliyinin mövqeyini almağa çalışdıq. Lakin qurumdan rəsmi münasibət öyrənmək mümkün olmadı.

Son iki həftədə MTN-də baş verənləri, nazir postunun boş qalmasını, qarşıdakı günlərdə qurumun taleyi ilə bağlı məsələləri **Milli Təhlükəsizlik Nazirliyinin sabiq birinci müavini Sülhəddin Əkbərlə** analiz etdik.

Sabiq MTN-çi rəhbər postunun boş qalmasının əməliyyat işlərinə ciddi təsir etdiyini bildirdi: "Uzun müddət MTN-də rəhbər vəzifəsində dəyişiklik olmaması, hazırda nazirlikdə rəhbər vəzifəsinin boş qalması qurumun fəaliyyətinə ciddi maneələr yaratdı. Hazırda rəhbərliyin böyük hissəsi azad olunub. Kadr dəyişikliyi əməliyyat işinə ciddi təsir göstərir. Hələ də bu postun boş qalması onu göstərir ki, hakimiyyət Eldar Mahmudovu vəzifədən çıxarmaq fikrində olmayıb. Burada kadr qıtlığından söhbət gedə bilməz. Əvvəlki müsahibələrimdə də demişdim ki, bu vəzifəyə təyinatda iki mühüm amil rol oynayacaq. Birincisi hakimiyyətə sadiqlik, ikincisi isə, Rusiyaya yaxınlıq amili. Uzun müddət MTN rəhbəri olmuş, dövlət başçısına yaxın bir şəxsin sonda barəsində bu cür informasiyaların yayılması onu göstərir ki, hakimiyyət səviyyəsində qətli kadr məsələsində tərəddüd edir. Bu məsələdə Rusiya amili daha ciddidir. Xatırlayırsınızsa, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili açıqlamışdı ki, Putin ona dövlətdə yüksək vəzifələrə bağlı təyinatlarda təzyiqlər edirdi. Bunu düşünsək,



Sülhəddin Əkbər

hesab etmək olar ki, əgər Putin Qərbə inteqrasiya xətti yürüdən bir dövlətə qarşı bu cür təzyiqlər edibsə, Azərbaycanda da MTN rəhbəri postuna təyinat üçün təzyiqləri olacaq. Özü də Azərbaycan-Rusiya münasibətlərinin yaxın olduğu indiki vaxtda bu istisna olunmur".

**S.Əkbər təyinat məsələsini hakimiyyətin seçkidən sonraya saxlamaq məqsədinin olmadığını söylədi:** "Seçkiyə az müddət qalmış belə bir addım atılırsa, dərhal təyinat hakimiyyətin möhkəmlənməsi baxımından daha düzgün olardı. Seçkiqabağı azadetmə daha neqativ təsir göstərir. Təyinatın gecikməsi xarici faktora bağlıdır. Rusiya ilə münasibətlərin yaxın olduğu dövrdə bu ölkəyə yaxın olmayan şəxsin nazir təyin olunması təhlükə yaradar".

**Müsahibimiz F.Məmmədovun MTN rəhbərliyinə gətiriləcəyi ilə bağlı iddialara da cavab verdi:** Təcrübə onu göstərir ki, İlham Əliyev kadr məsələsində gözlənilməz addımlar atır. Mətbuatda adı hallanan şəxslərin təyinat məsələsinə təsir edəcəyini düşünmürəm. İlham Əliyev yuxarıda qeyd etdiyim iki mühüm amil arasında balans qurmağa çalışacaq. Özünə sadiq olan Rusiya meylli bir şəxs axtaracaq. Belə bir kadr tapmaqda çətinlik çəkdiyi göz önündədir. Rusiyanın təzyiqləri də təsir edə bilər. Prezident özünə sərf edən, Rusiyanın etiraz etməyəcəyi bir şəxsi nazir təyin edəcək. Onu da bu günlərdə görəcəyik. Hakimiyyət Rusiyaya yaxınlaşmaqda ciddi səhvlərə yol verir. Çünki şimal qonşumuz dünyadan təcrid olunub. Belə bir şəraitdə Rusiyaya yaxınlaşmaq siyasətini anlamaq çətindir. Gələn il bu ölkə üçün həlledici il olacaq. Bunu dövlət rəsmilərinin özləri də açıq şəkildə bildirirlər. 8 ay Azərbaycan hakimiyyəti Rusiyanın təzyiqləri qarşısında dözə bilərdi. Batan gəmiyə yaxınlaşmaq fəlakətə doğru gedir. Hakimiyyət səhv yolda inamla irəliləməkdədir".

**Sabiq MTN-çi E.Mahmudovun müəyyən məsələlərdə özünə əminliyinin olduğunu da qeyd etdi:** "Çox həssas informasiyaları lazımı yerlərə çıxara bilib. Bununla özünün təhlükəsizliyinə müəyyən təminat ala bilib. Çünki bu qədər həbslərdən, MTN əməkdaşlarının həbsindən, qurumda baş verən cinayətlərinin üstünün açılmasından, ən əsası səs-küylü vəzifədən azad olunmasından sonra onun nəinki özünün, qudası Cahangir Hacıyevin də azadlıqda qalması göstərir ki, əllərində ciddi informasiyalar var, bu informasiyaların toxunulmazlığına təminat alıblar. Birinci insan özünü, sonra özünə yaxın olan insanları düşünür. Onun imkanları zəif olduğundan ətrafını qoruya bilmədi. Məsələlərə geniş kontekstdə baxmaq lazımdır. Dar çərçivədə baxmaq düzgün deyil. Ölkəmiz böyük dəyişikliklər astanasındadır. Çünki Azərbaycan iqtisadiyyatı neft üzərində qurulub. 21 fevral devalvasiyası dəyişikliklərin bünövrəsi oldu. Bir ciddi amili nəzərə alın. 2015-16-cı illərdəki dövlət büdcəmizi müəyyənləşdirmək ölkəmizin ümumi dəyərləndirməsidir. Dövlət büdcəsi bu il 19.438 milyon manat, yəni 24.777,6 milyard ABŞ dolları olub. Gələn il isə, 14.566 milyon manat, yəni 13.872,3 milyard ABŞ dolları nəzərdə tutulur. Fərq 10.905,6 milyard ABŞ dolları. Bu isə, 44% azalma deməkdir. Bu ilin ilk 6 ayına baxsaq, ümumdaxili məhsul 27% azalıb. İlin axırına qədər bu 40 faizə qədər artacaq. Bu isə, ölkədə milyona yaxın işsiz deməkdir. Gələn ili təsəvvür edin. Bu baxımdan hakimiyyətdaxili münasibətlər gərginləşəcək. Sonda sistem böhranı olacaq. MTN-də baş verənlər proseslərin gedişini sürətləndirdi. Hakimiyyət böhranla üz-üzə olduğunu ictimaiyyətdən gizlədir. Buna çox təəssüf edirəm. Bunun siyasi nəticələri qaçılmaz olacaq. MTN partlayışlardan ikincisi oldu. Birincisi maliyyə sektorunda olmuşdu. Görək üçüncü partlayış hansı sahədə olacaq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 242 (6270) 31 oktyabr 2015

# Siqaret və araqları kartla satmayanları həbs gözləyir

## Alıcılar veriləcək bu qərara birmənalı yanaşmır

**Azərbaycanda alkoqollu içkilərin və siqaretlərin nağd pulla satışı qadağan ediləcək. Bu qadağa İnzibati Xətalar və Cinayət Məcəllələrinə ediləcək dəyişikliklərdə nəzərdə tutulacaq. Həmin dəyişikliklərə görə, siqaret və alkoqollu içkilərin nağd satışına görə cərimə, hətta cinayət məsuliyyəti nəzərdə tutulur. Beləliklə, İnzibati Xətalar Məcəlləsinin 229-cu maddəsinə təklif edilən dəyişikliklərə görə, aksiz markası ilə markalanmalı olan məhsulların nağd qaydada alqı-satqısına görə cərimə tətbiq olunacaq.**

Həmin maddəyə 229.2 hissəsi əlavə ediləcək. Həmin hissəyə əsasən, tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan məhsulların nağd yolla az miqdarda satılması, belə məhsulların satış məqsədləri üçün nağd qaydada az miqdarda alınmasına görə cərimə nəzərdə tutulur.

Belə ki, ümumi məbləği 50 manata çatan alkoqollu içkilərin həm içmək, həm də alıb-satmaq məqsədilə satılması üçün 100 manat cərimə nəzərdə tutulub. Siqaretlərin isə pərakəndə satışı yalnız çəkmək məqsədi ilə nağd pulla almaq mümkün olacaq. Əgər siqaret sonradan satılmaq məqsədi ilə satılırsa, onun pulu yalnız kartla və ya bank köçürməsi ilə ödənilməlidir. Əks halda 100 manat cərimə nəzərdə tutulur. Hətta kartsız satışa görə 2 illik həbs cəzası da gözlənilir. Amma bu hələ yüngül cəzadır. Paralel olaraq Cinayət Məcəlləsinə təklif edilən dəyişikliyə görə, nağd yolla alınıb satılan aksiz markalı mallar xeyli miqdardadırsa, yəni onların məbləği 50-500 manat arasındadırsa, min manatdan iki min manatadək cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Əgər 500 manatdan artıq məbləğdə alkoqollu içki və ya siqaret alınıb-satılarsa, iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. İnzibati Xətalar və Cinayət məcəllələrinə edilən dəyişikliklər araq və digər spirtli içkilərlə yanaşı, pivə satışına da aiddir. Yəni bundan sonra pivə satışı da yalnız plastik kartla və bank ödənişləri ilə həyata keçiriləcək. Yeni dəyişikliklər qüvvəyə mindikdən sonra nəinki mağazadan, hətta restoranda araq almaq istəyənlər də onun pulunu kartla ödəməli olacaqlar. Belə ki, restoranda yeməklərin pulunun nağd ödənilməsinə icazə olsa da, araq və ya digər alkoqollu içkilər sifariş edərkən onun pulu yalnız kartla ödənilməlidir. Alkoqollu içkilərin və siqaretlərin satışında tətbiq olunacaq yenilik başqa bir dəyişikliyə də səbəb olacaq. Belə ki, bunların satışı üçün plastik kart tələb olunduğuna görə, bu məhsulların satış nöqtələrinin hamısında pos-terminallar quraşdırılmalıdır. Əks halda bu obyektlərdə alkoqollu içki və tütün məmulatlarının satışı ümumiyyətlə, mümkün olmayacaq.

**Nəzərdə tutulacaq bu dəyişikliklərə alıcıların və satıcıların fikrini öyrənmək üçün bir neçə markettə baş çəkdik.** Satıcıların əksəriyyəti bu məlumatlardan xəbərsiz idilər. Ancaq qanun nə tələb edirsə, onu da edəcəklərini, yəni kart tələb edilirsə, kartla da satacaqlarını deyirdilər. Alıcılar isə bu fikri birmənalı qarşılamadı. Alıcı Səməd Rəhimov bu qərarın yersiz olacağını dedi: "Mən siqaret çəkənəm. kartım da yoxdur. Belə çıxır ki, hər dəfə siqaret alanda ondan bundan kart dilənəcəm? Yatıb yuxuda nə görürlərsə onu da tətbiq edirlər. belə olmaz".

**Digər alıcı Ruslan Əliyev isə bu haqda məlumatlı olduğunu dedi:** "Məncə o qərar bizə aid deyil. Alıb başqa yerdə satmaq istəyənlərə aiddir. biz gün ərzində bir iki paket siqaret alırıq. Bunu da səhv etmirəmsə nağd pulla almaq olacaq. Amma restoranlarda yeməkləri nağd spirtli içkinin pulunu isə kartla ödəmək fikri gülməlidir. Şəxsən mənim kartım yoxdur. O zaman heç kim araq sifariş etməyəcək. bu da onların biznesinə zərər verəcək bizə yox".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** isə bunun çox zəruri bir tədbir olduğunu dedi: "Bunun çox zəruri bir tədbir olduğunu düşünürəm. Siqaret və spirtli içki istehlakçılarını azaltmaq üçün, yetkinlik yaşına çatmayanların bunun almasının qarşısını almaq üçün çox zəruri bir tədbirdir. Bu ona görə zəruridir ki, Azərbaycan tütün əleyhinə Dünya Səhiyyə Təşkilatının Tütün Əleyhinə Çərçivə Konvensiyasına qoşulub. Tütün və tütün məmulatı haqqında qanun qəbul olunub. Həmin qanunun tələblərində çoxsaylı məhdudiyyətlər var. Buna baxmayaraq uzun müddətdir ki, ölkədə siqaretin tək-tək satışı həyata keçirilir. Təhsil, tibb müəssisələri yaxınlığında satışı həyata keçirilir. Kim gəldi ona siqaret satılır. Azərbaycan dünyanın az ölkələrindən biridir ki, supermarketlərə girəndə ilk olaraq müştərini siqaret stendi, reklamı qarşılayır. Azad İstehlakçılar Birliyi İqtisadiyyat Nazirliyi ilə iş aparır ki, bunu məhdudlaşdıraq. Ən azından Rusiyadakı kimi vəziyyətə gətirək. Rusiyada siqaret stendlərinin üstü örtülü olur. 18 yaşından aşağı şəxslərə satışının qadağası görünsün. Həmçinin Rusiyada siqaret saatla satılır. Bizdə də bunu tətbiq etmək olar ki, hansı saatdan sonra siqaret satmaq olar hansı saatdan sonra satmaq olmaz. Azad İstehlakçılar Birliyi Azərbaycanda da buna nail olmaq istəyir. Səhiyyə Nazirliyi də bu işdə bizə dəstək verir. Bu tədbirlər həyata keçirilirlərsə, qəzet köşklərində siqaretlərin kütləvi şəkildə satışının qarşısı alına bilər. Yeniyetmələrin siqaretin əlçatanlığı məhdudlaşdırıla bilər".

**Qurum sədri yeni qəbul edilmiş qanuna görə kartı olmayan istehlakçılar üçün siqaret və spirtli içki alışında müəyyən problem yaratsa da kartı olanlara pul verməklə bu problemi özləri həll edəcəklər:** "Azərbaycan istehlakçıları Avropa istehlakçıları deyil ki, kiməsə kartına görə nağd pul verəsən oda ondan imtina etsin. Kartı olmayan alıcılar kartı olanlara pul verməklə istədikləri siqaret və spirtli içkini alacaqdır. Ancaq bu zəruri bir tədbirdir. Lakin düşünürəm ki, Nərimanov rayonu ərazisində, vağzal ərazisində əksər hallarda aksiz markası olmayan qaçaqmal siqaretlərin qarşısını hökumət ala bilməyəcək. Çünki bunun çox böyük himayəçisi var".



**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

# "Özü bir dağdır ki, gölgəsindəyik"



**Samir SARI**

**Kim deyirsə ki, tərifi sözdən xoşu gəlmir, bilin ki, ən azı düz demir, ən çoxu - yalan deyir. Tərifi hamı sevir, tənqidi heç kim sevmir. "Üzümə qarşı təriflənməkdən zəhləm gedir" deyənlər də umurlar ki, onları dallarınca tərifləsinlər.**

"Sağlam tənqidə qarşı deyiləm" deyənləri də üzünə qarşı bir balaca tənqid edin, görün, necə tapança kimi açılırlar. Məsələn, 21-ci əsrdə yetişmiş ən istedadlı yazıçımız Şərif Ağayarı bir az tərifləmişəm, özünü artıq Kəramət Böyükçöldən də güclü yazıçı sayır (Heç nə yox, Şərif bu müqayisəyə görə məni 2025-ci ilə qədər bağışlamayacaq - bu sözlərin zarafat olduğunu indidən deməsəm).

Bu ölkədə qaydadır, yeri düşən kimi hamı bir-birini tərifləyir. Yeddi kişidən ibarət məclisə düşürsən, qarşılıqlı təriflər sellənib gedir, masadakı spirtli içkilər qurtarır, bu "yeddi qardaş"ın bir-birini tərifləməsi bitmir. Allah eləməsin, o məclisdə kiminsə dilindən o birinin üzünə qarşı, heç tənqid də demirəm, güldən ağır söz çıxsın, ən azı küsərək məclisdən çıxıb getmə, ən çoxu da qarşılıqlı söyüşmə və əlbəyaxa olma vaqiəsi yaşanacaq.

Bir də var mədhiyyə. Nə işdirsə, xalqımız o cür içkili məclislərdə deyilən bəlağətli tostların bədii həllini, poeziyadakı inikasını sevmir. Bilinmir, bu, şeirə-sənətə hörmətdəndir, yoxsa nədəndir.

Hələ o da maraqlıdır ki, xalqımız mədhiyyənin astar üzü olan həcvi çox sevir, hətta həcv yazanı qəhrəman elan edə bilir.

Bu günlərdə yaşanan nazir-şair-mədhiyyə-töhmət haqq-hesabında əksinə olsaydı, yəni məmur şair öz nazirini yıxıb sürüsəydi, itdən alıb itə versəydi, təbii ki, töhmətlə canını qurtara bilməzdi, adamı ən azı işdən çıxarar, ən çoxu - dolaşdırıb tutdurardılar. Əvəzində xalqımız sosial şəbəkələrdə onu "poeziyamızın vicdanı", "prinsipial mövqeli dissident" adlandırar, təriflәyib dağın başına qaldırardılar.

Tarixən belə olub, üsyankar spartaklar, koroğlular xalq arasında yalaka vəzirlərdən, əyanlardan daha çox seviliblər.

Ancaq gerçəklik də budur ki, yaltaqların maddi imkanları, kalori və komfort əldə etmək şansları həmişə daha çox olub. Bu da balaca faktor deyil. Üsyançıları isə nə gözlədiyini bilirsiniz. Mıx, çarmıx, dırmıx, qandal, zindan, əfv və sair.

Yenə tarixə baxaq, Nəsimi mədhiyyə yazmadı, üsyankar oldu, nə qazandı, tutub dərisini soydular, amma Nizami şahlara poema həsr etdi, ənam da aldı, kəniz olaraq xanım da. İndinin özündə kimi dindirsən, deyər ki, Nizami Nəsimidən daha böyük şairdir.

Bununla belə, mədhiyyə yazanlar günümüzdə nə şair kimi, nə də ciddi adam kimi qəbul edilmirlər. Camaat da himə bənddir, hoydu-hoyduya götürür.

Heç demə, məmur-şairin adının qarışdığı hadisə yeganə deyil, başqa məddahlıq nümunələri də varmış. Dostlar sosial şəbəkədə paylaşıblar, Nəzər adlı bir şair də ARDNŞ-in və AFFA-nın prezidenti, deputatlığa namizəd Rövnəq Abdullayevi vəsf edib. Poeziya incisi aşağıdakı kimidir:

"Ruzi-bərəkəti ayağındadır,
Özü bir dağdır ki, kölgəsindəyik.
Vətən Rövnəqlərin sorağındadır,
Nurlu qədəmlərin həsrətindəyik.
Əl qaldır, ver səsi ey vətən oğlu
Qurub yaratmaqçün gəlir, el oğlu!
Allah göndəribdir bizlərə onu,
Böyük məclislərdə gur səsimizdir.
Dünya yaşadıqca var olsun onu,
Uca Tanrımızdan qismətimizdir.
Layiqdir hər türlü ucalıqlara,
Layiqli olmağı əməlindədir.
Azəri oğlutək gedirsə hara,
Yarıdır, yarıtmaq təməlindədir.
Ey ulu torpağın mərd oğlu, qızı
Verək layiqliyə öz səsimizi!!!

Bilmirəm, fikir verdiniz, ya yox, şeirin birinci sətirlərinin baş hərflərini üzü aşağı oxuyanda "RÖVNƏQ ABDULLAYEV" sözləri əmələ gəlir. Elə-belə şey deyil, buna istedad lazımdır. "Allah göndəribdir bizlərə onu", "Yarıdır, yarıtmaq təməlindədir" fikriylə razılaşmaya bilərsiniz, əsas sözdən kilim toxumaqdır, talantlı şairimiz də bunu edib.

İndən belə mədəniyyət nazirinə, yaxud başqa bir nazirə şeir yazmaq istəyənlər bunu nəzərə almalı, bu zirvədən daha uca zirvələr kəşf etməlidirlər.

Böyük şairimiz Vahid belə demişdi? "Üzü dönsün görüm bu ağuya dönmüş çöreyin"...

**Ardını bilirsiniz. Bilməyənlər də bilənlərdən soruşsun.**

# Bakıda polisə silahlı hücum



**Bakının Nərimanov rayonunda polis əməkdaşına silahlı hücum olub. Bu zaman polis cinayətkara müqavimət göstərə bilməyib. Nərimanov Rayon Polis İdarəsindən virtualaz.org saytına verilən məlumata görə, lüləsi kəsik qoşalülə tüfənglə silahlanmış naməlum maskalı şəxs Ziya Bünyadov prospekti, 2082 ünvanında yerləşən zavod anbarının qapısının açıq olmasından istifadə edərək binaya soxulub.**

Həmin vaxt Binəqədi rayon mühafizə polisinin əməkdaşı, polis çavuşu Ceyhun Əvəz oğlu Hüseynov anbarda xidmət başında olub. Cinayətkar polis əməkdaşından anbarın açarlarını tələb edib. Lakin elə bu zaman digər mühafizəçi də anbara gəlib. Cinayətkar iki mühafizəçi ilə təkbaşına bacara bilməyəcəyini görərək havaya atəş açıb və hadisə yerindən qaçaraq gizlənib.

**Hazırda şübhəli şəxsin kimliyini müəyyən etmək üçün əməliyyat-axtarış tədbirləri görülür. Fakt üzrə araşdırma aparılır.**

Elan

Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.
Əlaqə telefonu: (050) 343-59-72

Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Sevgilisini öldürən kişi tutuldu



**Sabunçu rayonunun Zabrat qəsəbə sakini Aliyə Mansurovanın həmin ünvanda qeyri-rəsmi birgə yaşadığı Rüfət Mehdiyev tərəfindən döyülərək xəsarət alması faktına görə başlanmış cinayət işinin istintaqı Baş Prokurorluğun rəhbərliyinin tapşırığına əsasən Bakı şəhər prokurorluğunda davam etdirilir.**

Aparılmış istintaq zamanı cinayət əməli Cinayət Məcəlləsinin 133.2.2 (əzab vermə, aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə), 133.2.6 (əzab vermə, işgəncə verilməklə törədildikdə) və 150.1-ci (seksual xarakterli zorakılıq hərəkətləri) maddələrinə tövsif edilmiş və R.Mehdiyevə həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə barəsind Səbail Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib

Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

❑ **Musavat.com**

## İş adamı atasının qəbri üstündə özünü güllələdi



**Azərbaycanda sahibkar atasının qəbiri üstündə özünü güllələyib. "Report" xəbər verir ki, intihar hadisəsi Ağdaş rayonunun Güvə kəndində baş verib. Belə ki, kənd sakini, 1965-ci il təvəllüdlü Mirələm Davud oğlu İsmayılov kənd qəbirisanlığında atasının məzarı üstündə özünü güllələyib. Təklüləli ov tüfəngi mərhumun özünə məxsus olub. Qeyd edək ki, İ.Mirələmov iki uşaq atası olub. O,biyan kökü toplama biznezi ilə məşğul olurmuş. Faktla bağlı araşdırma aparılılır.**

## Bakıda saxta dollar satan şəxs: "İçkili olmuşam"

**Bakı Ağır Cinayətlər Məhkəməsində saxta əskinas satmaqda təqsirləndirilən Şamaxı şəhər sakini Mehman Qafarovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib. "Report"un xəbərinə görə, hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin müdafiəçisi çıxış edib. O bildirib ki, M.Qafarov saxta əskinasları satan zaman içkili vəziyyətdə olub:**

"O, tutduğu əməldən peşmandır. Mehman Qafarov saxta əskinasları satarkən içkili vəziyyətdə olub. Onu aldadıblar". Hakim Eldar İsmayılov M.Qafarova çıxış etmək üçün söz versə də, o, çıxışına hazır olmadığını və növbəti prosesə qədər vaxt istədiyini deyib. Məhkəmənin növbəti prosesi noyabrın 5-nə təyin edilib.

Qeyd edək ki, bu ilin yanvar ayında Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Şamaxı şəhər sakini Mehman Qafarov 200 ədəd 100 dollarlıq saxta əskinası Bakının Nərimanov rayonu ərazisindəki parkda satarkən tutulub. Üzərinə baxış zamanı ondan əlavə 18 ədəd 100 manatlıq saxta əskinas da aşkar edilərək götürülüb.

Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Dostunu öldürməkdə təqsirləndirilən şəxsə hökm oxunub



**Bakı Ağır Cinayətlər Məhkəməsində dostunu öldürməkdə təqsirləndirilən Əliyev Bəxtiyar Ələsgər oğlunun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. "Report"un xəbərinə görə, hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Məhkəmənin hökmü ilə B.Əliyev 11 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, hadisə bu il "20 Yanvar" metro stansiyasının çıxışında yerləşən ticarət obyektlərindən birinin qarşısında baş verib. Mağaza sahibi B.Əliyevin qonşu mağazada işləyən dostu Kənan Xəlilovla aralarında mübahisə düşüb. Daha sonra hər iki şəxs bir-birini təpik və yumruq zərbələri vurublar. B.Əliyevin zərbələri qarşısında aciz qalan K.Xəlilovun ürəyi gedərək ölüb.

B.Əliyev Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, bu Məcəllənin 126.1 və 126.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə ittiham olunub.

## Paytaxtda avtobuslar toqquşdu: 10 yaralı

**Bakının Qaradağ rayonu ərazisində 7 nəfərin xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Qaradağ Rayon 10-cu polis bölməsindən ANS PRESS-ə verilən məlumata görə, Bakı şəhər sakini Novruz Əliyevin idarə etdiyi "Daewoo" markalı sərnişin avtobusu Sədərək ticarət mərkəzi yaxınlığında hərəkətdə olarkən paytaxt istiqamətində hərəkət edən, Masallı rayon sakini Qoşqar Ağalarovun idarə etdiyi "Ford" markalı mikroavtobusla toqquşub.**

Qəza nəticəsində 7-si orta ağır olmaqla on nəfərdən çox adam xəsarət alıb. Xəsarət alanlar əraziyə cəlb edilmiş təcili tibbi yardım avtomobilləri vasitəsi ilə 1 saylı kliniki tibbi mərkəzə çatdırılıb. Xəstəxanadan ANS PRESS-ə verilən məlumata görə, gətirilən 4 nəfərə tibbi yardım göstərilib və evə buraxılıb. Hazırda travmatologiya şöbəsində 4 xəstəyə yardım göstərilir.

Faktla bağlı Qaradağ Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

Bir müddət əvvəl də Bakının Nərimanov rayonu ərazisində iki sərnişin avtobusu toqquşub.

Həmin ərazidə 14 saylı sərnişin avtobusu gedərkən "Mercedes" markalı minik maşını ona çırpılıb. Qəzadan sonra avtobusun sürücüsü avtobusdan düşüb və minik maşınının sürücüsü ilə mübahisəyə başlayıb. Bu zaman digər 14 saylı sərnişin avtobusu gəlib və dönmə əməliyyatını yerinə yetirərkən dayanan avtobusa dəyib. Həmin hadisə xəsarətsiz ötüşsə də avtobuslara və minik maşına ziyan dəymişdi.

## Boşanmaq istəməyən kişi sirkə turşusu içdi

**Bakıda 30 yaşlı kişi intihara cəhd edib. Musavat.com xəbər verir ki, intihara cəhd hadisəsi Xətai rayonu ərazisində baş verib. Gəncə sakini 1985-ci il təvəllüdlü Tural Qurbani M.Hadi küçəsində sirkə turşusu içərək özünü öldürmək istəyib. Ətrafda olanlar onu bu fikrindən daşındırmaq istəyib. Daha sonra əraziyə polis əməkdaşları gəlib. T.Qurbaninin fikrini dəyişmək olmayıb.**

T.Qurbani Toksikologiya Mərkəzinə yerləşdirilib. Həkimlər onun həyatını xilas edə bilib.

Əldə etdiyimiz məlumata görə, T.Qurbaninin intihara cəhdinin səbəbi həyat yoldaşından boşanmaq istəməməsidir. T.Qurbani arvadı Nərminə Əliyeva ondan boşandığı üçün özünü öldürmək istəyib.

❑ **İlkin MURADOV**

Elan

Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.
Tel: 070 335 90 15

Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.
Tel: (050) 614-40-24